# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

27 noyabr
2026-cı il,
cümə
№ 217 (7284)
Qiyməti
60 qəpik




Milli azadlıqdan
şirin nemət yoxdur!

*A.S. (Ante Skriptum)*

***İlham Əliyev:***

***Avropa Parlamenti rüşvətxorlar yuvasıdır. Bunu mən tam məsuliyyətlə deyirəm.***

# Azərbaycan-Litva:
## siyasi dialoqdan iqtisadi tərəfdaşlığa doğru



## Vilnüs Bakı ilə əlaqələrin genişləndirilməsində maraqlıdır

Bax səh. 2

## “Yeni dövrün çağırışları: güclü iqtisadiyyat və dayanıqlı inkişaf strategiyası”

Bax səh. 4

## Azərbaycandan Pakistana gözəl hədiyyə

Bax səh. 3

## İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu...

Azərbaycanla Özbəkistan dost və qardaş ölkələrdir. Zəngin tarixi irsə əsaslanan əlaqələrimiz müasir dövrümüzdə daha da intensivləşib. Bu gün ölkələrimiz yalnız ikitərəfli əməkdaşlıq çərçivəsində deyil, müxtəlif beynəlxalq platformalar müstəvisində də fəal əməkdaşlıq edir. Eləcə də, dövlət başçılarının siyasi iradəsinə uyğun olaraq, Azərbaycanla Özbəkistanın müxtəlif qurumları da əməkdaşlıq edirlər.

Bu baxımdan, parlamentlərarası əlaqələr xüsusi vurğulanmalıdır. Noyabrın 25-də Bakıda keçirilən “Azərbaycan-Özbəkistan əbədi dostluq və müttəfiqlik münasibətlərinin parlament ölçüsü: əməkdaşlıq istiqamətləri və perspektivlər” mövzusuna həsr olunmuş İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu da qanunvericilik orqanları arasında əlaqələrin inkişafında vacib rol oynayır.

Forumun açılış mərasimində çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova parlamentlərimiz arasında etimad və qarşılıqlı hörmətə əsaslanan dialoqu yüksək qiymətləndirib. O bildirib ki, Birinci Parlamentlərarası Forum ötən ilin iyulunda Xivədə uğurla keçirilib və orada parlament əlaqələrinin vəziyyəti, birgə iş üçün prioritet sahələr müzakirə edilib. Parlamentin sədri deyib ki, ikinci forumun Bakıda keçirilməsi bu dialoq formatının inkişafına və əldə edilən razılaşmaların praktiki şəkildə həyata keçirilməsinin təmin olunmasına qarşılıqlı sadiqliyi nümayiş etdirir.

Parlament ölçüsünün Azərbaycan-Özbəkistan münasibətlərində mühüm yer tutduğunu vurğulayan S.Qafarova deyib ki, bu gün ölkələrimiz...

Bax səh. 3




## “Kəmər və Yol” təşəbbüsünün “yaşıl enerji” marşrutu

Bax səh. 7

## İxrac hesablaşmaları qaydası təkmilləşdirilir

Bax səh. 5

## Avropa qaz böhranı astanasında...

Bax səh. 5

## Regional inkişaf strategiyası: Real nəticələr, sabahın hədəfləri...

Bax səh. 6

## ABŞ münaqişənin nizamlanması üçün konsepsiya hazırlayıb

Bax səh. 7

## Avropa Parlamentinin ikili standartları: siyasi qərəz, selektiv yanaşma və itirilən etimad

Avropa İttifaqının Cənubi Qafqaz siyasəti ilə dabandabana zidd olan Avropa Parlamentinin mövqeyi, xüsusilə bu qurumun son illərdə Azərbaycanla bağlı kəskin qərəzə söykənən siyasəti Brüsselin regiondakı siyasi prosesləri nə dərəcədə obyektiv qiymətləndirdiyi barədə ciddi suallar yaradır. Məntiq etibarı ilə Azərbaycanın yaratdığı yeni geosiyasi reallıqlar, Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar və sülh gündəliyinin irəli aparılması Avropa institutlarından daha məsuliyyətli və balanslı mövqe tələb edir - amma AP-nin ayrı-ayrı komitələrində hazırlanmış “sənədlərin” məzmunu göstərir ki, qurumun müəyyən siyasi dairələri hələ də regiona əvvəlki münaqişə prizmasından yanaşmağa üstünlük verirlər, hətta bəzi məqamlarda bu münaqişələrin yenidən alovlanmasını arzulayırlar. Burada diqqət çəkən əsas məqam təkcə Azərbaycana yönələn tənqidlərin məzmunu deyil, eyni zamanda, eyni meyarların regionun digər dövlətlərinə münasibətdə tətbiq edilməməsidir. Ölkəmizə qarşı aparılan kampaniyaların qondarma məzmununu təşkil edən “insan hüquqları”, “demokratiya”, “hüququn aliliyi” və “beynəlxalq öhdəliklər” kimi universal prinsiplərin siyasi məqsədlərə uyğun olaraq fərqli şəkildə şərh edilməməsi Avropa Parlamentinin özünün elan etdiyi dəyərlərlə ziddiyyət təşkil edir. Halbuki Azərbaycanda insan hüquqlarının qorunması ən yüksək şəkildə təmin olunur, demokratik inkişaf...

Bax səh. 4

## Dohada danışıqlar masası qurulacaqmı?



Bax səh. 6



## Tbilisinin Avropa dilemması: Gürcüstan Brüsseldən uzaqlaşır, yoxsa siyasi kursunu dəyişir?

Bax səh. 7

# Azərbaycan-Litva: siyasi dialoqdan iqtisadi tərəfdaşlığa doğru

## Vilnüs Bakı ilə əlaqələrin genişləndirilməsində maraqlıdır

Azərbaycanın xarici siyasət strategiyasında ikitərəfli münasibətlərin inkişafı, müxtəlif regionları təmsil edən dövlətlərlə qarşılıqlı etimada, siyasi dialoqa və ortaq maraqlara əsaslanan əməkdaşlığın genişləndirilməsi mühüm yer tutur. Bakı beynəlxalq münasibətlər sistemində öz mövqelərini möhkəmləndirməklə yanaşı, tərəfdaşlıq əlaqələrini də milli maraqlar, qarşılıqlı fayda və bərabərhüquqlu əməkdaşlıq prinsipləri üzərində qurur. Bu baxımdan Avropa ölkələri ilə münasibətlərin inkişafı Azərbaycanın xarici siyasət prioritetlərindən biridir. Baltikyanı ölkələrlə əməkdaşlıqda isə Litva xüsusi yer tutur. Azərbaycan-Litva münasibətləri tarixən qarşılıqlı hörmət, açıq siyasi dialoq və ortaq maraqların təşviqi əsasında inkişaf edib. Hər iki ölkənin strateji tərəfdaşlıq müstəvisində əməkdaşlığı siyasi, iqtisadi, enerji, nəqliyyat-logistika və humanitar sahələrdə yeni imkanlar yaradır. Eyni zamanda, Litvanın Azərbaycanla əlaqələri daha da genişləndirmək, Avropa İttifaqı çərçivəsində Bakı ilə əməkdaşlığın əhəmiyyətini önə çəkmək marağı diqqəti cəlb edir. Vilnüs Azərbaycanın Cənubi Qafqazdakı geosiyasi və iqtisadi rolunu, enerji təhlükəsizliyi və beynəlxalq nəqliyyat bağlantılarındakı əhəmiyyətini nəzərə alır. Noyabrın 25-də Litvanın xarici işlər naziri Kestutis Budrisin Azərbaycana səfəri də bu münasibətlərin yeni mərhələyə yüksəldilməsi baxımından əhəmiyyətli siyasi hadisə kimi qiymətləndirilə bilər. Səfər çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla keçirilən görüş və birgə mətbuat konfransında səsləndirilən fikirlər iki ölkənin əməkdaşlığın genişləndirilməsində ortaq siyasi iradəyə malik olduğunu bir daha nümayiş etdirdi.





### Siyasi dialoq və strateji tərəfdaşlığın yeni perspektivləri

Vurğulandığı kimi, Azərbaycan-Litva münasibətlərinin inkişaf dinamikası göstərir ki, iki ölkə arasında əməkdaşlıq yalnız mövcud siyasi əlaqələrin qorunması ilə məhdudlaşmır, həm də yeni beynəlxalq reallıqlara uyğun olaraq genişləndirilir. Azərbaycanın xarici siyasətində yeni iqtisadi-siyasi konfiqurasiyanın inkişafı baxımından ikitərəli münasibətlər sisteminin yeni ştrixlərlə zənginləşdirilməsi ön plandadır. Litva ilə münasibətlərdə də bu amil özünü aydın göstərir. Vilnüs Bakı ilə siyasi dialoqun dərinləşdirilməsində, regional məsələlər üzrə qarşılıqlı anlaşmanın möhkəmləndirilməsində maraqlıdır. Xüsusilə Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni geosiyasi reallıqlar, regionun nəqliyyat və enerji xəritəsində artan rolu Litvanın ölkəmizə münasibətdə maraqlarını genişləndirir. Bu, həm də Avropa dövlətlərinin Azərbaycanla münasibətlərə daha praqmatik yanaşmasının vacibliyini ortaya qoyur.

Keçirilən mətbuat konfransında çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, tarixən Azərbaycan-Litva münasibətləri qarşılıqlı hörmətə, açıq siyasi dialoqa və ortaq maraqların irəli aparılmasına xidmət edib. Liderlər arasında münasibətlər hər zaman müsbət olub: "Bu gün iki ölkə arasında münasibətlər baxımından tarixi gün hesab oluna bilər. Azərbaycanla Litva arasında müxtəlif sahələri əhatə edən 45 sənəd mövcuddur. Hazırda daha 7 sənəd üzərində iş aparılır. Yaxın zamanda həmin sənədlərin də tamamlanmasının şahidi olacağıq".

### Litvanın Aİ çərçivəsində təşəbbüsləri

Azərbaycanın Avropa ilə münasibətlərində ikitərəfli əməkdaşlıqla yanaşı, Avropa İttifaqı institutları və üzv dövlətlərlə siyasi dialoqun genişləndirilməsi də mühüm istiqamətdir. Azərbaycanın enerji təhlükəsizliyinə verdiyi töhfə, Şərq-Qərb nəqliyyat bağlantılarındakı mövqeyi və regional iqtisadi layihələrdə iştirakı Avropa üçün ölkəmizin strateji əhəmiyyətini artırır. Xüsusilə enerji mənbələrinin və təchizat marşrutlarının şaxələndirilməsinə ehtiyacın yüksəldiyi indiki şəraitdə Azərbaycan Avropanın etibarlı tərəfdaşlarından biri kimi çıxış edir. Litvanın bu reallığı nəzərə alaraq Azərbaycanla əməkdaşlığı Aİ səviyyəsində də təşviq etmək niyyəti diqqətəlayiqdir. Bu yanaşma Vilnüsün yalnız ikitərəfli münasibətlərin inkişafına deyil, həm də Avropa İttifaqının Bakı ilə əlaqələrinin daha sistemli və uzunmüddətli xarakter almasına maraq göstərdiyini təsdiqləyir. Belə bir mövqe Azərbaycanın Avropa məkanında siyasi-iqtisadi tərəfdaşlıq imkanlarının genişlənməsinə də xidmət edə bilər.

Litvanın xarici işlər naziri Kestutis Budris Bakıda keçirdiyi mətbuat konfransında Azərbaycanın Cənubi Qafqazın əsas ölkəsi olduğunu, enerji və bağlantı sahələrində strateji layihələr baxımından mühüm tərəfdaş kimi çıxış etdiyini bildirib. O, qeyd edib ki, Cənubi Qafqazın əsas ölkəsi olan Azərbaycanla münasibətlərimizi daha da gücləndirmək niyyətindəyik. Azərbaycan enerji və bağlantı sahələrində strateji layihələr baxımından mühüm tərəfdaşdır: Məqsədimiz Avropa İttifaqının 27 üzv dövlətinin hamısını Azərbaycanla bağlı vahid yanaşma ətrafında birləşdirməkdir. Biz bu ölkələrə Azərbaycanın strateji əhəmiyyətini və əməkdaşlığın vacibliyini izah edəcəyik. Bu əməkdaşlıq yalnız birillik dövrlə məhdudlaşmayacaq, qarşıdakı illərdə də fəaliyyətimizi asanlaşdıracaq".




### İqtisadi əməkdaşlıq və qarşılıqlı investisiya imkanları

Azərbaycanın iqtisadi inkişaf modeli xarici investisiyaların cəlb edilməsini, qeyri-neft sektorunun genişləndirilməsini və beynəlxalq iqtisadi əlaqələrin şaxələndirilməsini əsas prioritetlərdən biri kimi müəyyənləşdirib. Bu baxımdan Avropa şirkətlərinin ölkəmizdə fəaliyyətinin genişlənməsi xüsusi əhəmiyyət daşıyır. Litva ilə iqtisadi münasibətlərin inkişafı da qarşılıqlı investisiya imkanlarının reallaşdırılması üçün əlverişli zəmin yaradır. Xüsusilə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq layihələri xarici investorlar üçün yeni iqtisadi məkan formalaşdırır. Bu ərazilərdə sənaye, istehsal, logistika və xidmət sektorlarının inkişafı Avropa biznes dairələrinin diqqətini cəlb edir. Litva şirkətlərinin həmin prosesə qoşulması isə əməkdaşlığın praktiki nəticələrini nümayiş etdirir. Bununla yanaşı, mövcud ticarət dövriyyəsinin potensiala uyğun artırılması, biznes dairələri arasında birbaşa əlaqələrin qurulması və yeni investisiya layihələrinin təşviqi qarşısındakı dövrün əsas vəzifələrindəndir.

İqtisadi əməkdaşlığın konkret istiqamətlərinə toxunan nazir Ceyhun Bayramov bildirib ki, Litva işğaldan azad edilən ərazilərə investisiya yatırıb. Bu ölkəyə məxsus şirkət Araz Vadisi İqtisadi Zonasında kifayət qədər böyük mebel istehsalı müəssisəsinin qurulması ilə məşğuldur. Burada nəzərdə tutulan investisiyaların həcmi 50 milyon manat təşkil edir. Müəssisə fəaliyyətə başladıqda işğaldan azad olunmuş ərazilərdə əlavə 600 iş yeri yaradılacaq.

"Ticarət dövriyyəsini hazırkı səviyyədə qənaətbəxş hesab etmək olmaz. Halbuki bu sahədə potensial daha böyükdür. Ölkəmizdə biznesin aparılması üçün mövcud imkanlar və perspektivli sahələr mövcuddur", - deyə C.Bayramov əlavə edib.

Azərbaycan arasında ortaq prioritetlərdir. Bu sahədə qarşılıqlı maraq mövcuddur. Avropa İttifaqı Azərbaycanın təchizat imkanlarında, eyni zamanda, investisiya məkanı kimi potensialında maraqlıdır. "Şübhəsiz ki, Avropa İttifaqı ilə Azərbaycan arasında Strateji Tərəfdaşlıq Sazişinin nəzərdən keçirilməsi də gündəliyimizdə olan məsələlərdəndir", - deyə litvalı nazir vurğulayıb.

qeyini yüksək qiymətləndirdiklərini vurğulayaraq, ölkənin 2027-ci ilin birinci yarısında Aİ Şurasına sədrlik edəcəyini xatırladıb. Onun sözlərinə görə, bu, məsələnin Aİ-nin gündəliyində irəlilədilməsi üçün əlverişli fürsət yaradır.

Ceyhun Bayramov qeyd edib ki, viza prosedurlarının sadələşdirilməsi hər iki tərəfin maraqlarına uyğundur. Bu, turizm, təhsil və biznes əlaqələrinin genişlənməsinə, eləcə də insanlar arasında təmasların asanlaşmasına töhfə verəcək.

Nazir, həmçinin hazırda Litvanın ali təhsil müəssisələrində 800-ə yaxın azərbaycanlı tələbənin təhsil aldığını, ötən il isə Litvadan Azərbaycana 3 mindən çox turistin səfər etdiyini açıqlayıb. Birbaşa uçuşların təşkili də əməkdaşlığın inkişafı üçün perspektivli istiqamət kimi gündəmə gətirilib.

### Viza rejiminin sadələşdirilməsi əlaqələrin genişlənməsinə imkan yaradır

Dövlətlərarası münasibətlərin möhkəmlənməsi yalnız siyasi və iqtisadi əməkdaşlığın inkişafı ilə ölçülmür. Xalqlar arasında birbaşa təmasların artması, təhsil, turizm və mədəniyyət sahələrində əlaqələrin genişlənməsi tərəfdaşlığın dayanıqlı əsaslarını formalaşdırır. Azərbaycan-Litva münasibətlərində də bu istiqamət xüsusi əhəmiyyət kəsb edir. Vətəndaşların qarşılıqlı səfərlərinin asanlaşdırılması, tələbə mübadiləsinin genişləndirilməsi və biznes nümayəndələrinin sərbəst əlaqə imkanlarının artırılması ikitərəfli münasibətlərin sosial bazasını gücləndirə bilər. Xüsusilə viza prosedurlarının sadələşdirilməsi hər iki ölkənin vətəndaşları üçün yeni imkanlar yaradacaq. Bu, turizm dövriyyəsinin artmasına, təhsil əlaqələrinin dərinləşməsinə, eləcə də investisiya və biznes təşəbbüslərinin daha operativ reallaşmasına müsbət təsir göstərəcək. Beləliklə, humanitar əlaqələr siyasi tərəfdaşlığın cəmiyyətlər səviyyəsində də möhkəmlənməsinə xidmət edən mühüm vasitəyə çevrilir.

Bu məsələlər də xarici işlər nazirlərinin görüşündə diqqət mərkəzində olub. Kestutis Budris Azərbaycanla viza rejiminin sadələşdirilməsi istiqamətində hüquqi proseslərin başlanmasının vacibliyini bildirib. O vurğulayıb ki, konkret nəticələr əldə etmək istədiyimiz bir sıra istiqamətlər var. Bunlardan biri viza rejiminin sadələşdirilməsidir. Bu istiqamətdə müvafiq hüquqi prosesləri işə salmaq lazımdır. Litvalı nazir qeyd edib ki, digər istiqamət Avropa İttifaqı (Aİ) ilə Azərbaycan XİN rəhbəri Ceyhun Bayramov isə bildirib ki, Avropa İttifaqının qaydalarına əsasən, viza siyasəti və viza liberallaşdırılması ilə bağlı qərarlar İttifaq səviyyəsində qəbul edilir. Bununla belə, üzv dövlətlərin mövqeyi də mühüm əhəmiyyət daşıyır. Nazir Litvanın bu məsələdəki mövqeyini yüksək qiymətləndirdiklərini vurğulayaraq, ölkənin 2027-ci ilin birinci yarısında Aİ Şurasına sədrlik edəcəyini xatırladıb. Onun sözlərinə görə, bu, məsələnin Aİ-nin gündəliyində irəlilədilməsi üçün əlverişli fürsət yaradır.

Ceyhun Bayramov qeyd edib ki, viza prosedurlarının sadələşdirilməsi hər iki tərəfin maraqlarına uyğundur. Bu, turizm, təhsil və biznes əlaqələrinin genişlənməsinə, eləcə də insanlar arasında təmasların asanlaşmasına töhfə verəcək.

Nazir, həmçinin hazırda Litvanın ali təhsil müəssisələrində 800-ə yaxın azərbaycanlı tələbənin təhsil aldığını, ötən il isə Litvadan Azərbaycana 3 mindən çox turistin səfər etdiyini açıqlayıb. Birbaşa uçuşların təşkili də əməkdaşlığın inkişafı üçün perspektivli istiqamət kimi gündəmə gətirilib.

*P.İSMAYILOV*

# "Kəmər və Yol" təşəbbüsünün "yaşıl enerji" marşrutu

## Azərbaycan və Çin yeni dəhliz quruculuğunda əməkdaşlığı genişləndirir

Energetika naziri Pərviz Şahbazov Çinin Çindao şəhərində keçirilən "Kəmər və Yol" təşəbbüsü üzrə energetika nazirlərinin IV konfransında Azərbaycanın regionda strateji nəqliyyat və enerji layihələrinin inkişafına verdiyi töhfələrə diqqət çəkib. Bildirib ki, Çin Xalq Respublikasının Sədri Si Cinpinin irəli sürdüyü "Kəmər və Yol" təşəbbüsünü Azərbaycan ilk dəstəkləyən ölkələrdən biri olub. Təşəbbüs çərçivəsində layihə üzrə infrastrukturların yaradılması və modernləşdirilməsi işlərinə həm ölkə daxilində və xaricdə ən çox sərmayə yatıran ölkə də Çindən sonra Azərbaycandır. Ölkəmiz Orta Dəhlizin Çinlə Avropa arasında nəqliyyat əlaqələrini gücləndirilməsi, Zəngəzur dəhlizinin isə Şərqlə Qərb arasında yeni marşrutun açılması istiqamətində davamlı səylərini davam etdirməklə öz qətiyyətli mövqeyini nümayiş etdirməkdədir.




**Yeni logistika modeli Azərbaycanı sürətli tranzit marşrutlarından birinə çevirir**

Energetika nazirlərinin IV konfransında Çin ilə Mərkəzi və Şərqi Avropa arasında avtomobil yükdaşımalarının sürətlə genişlənməsinə və Avrasiya logistikasında yeni marşrutların əhəmiyyətinin artmasına da toxunulub. Vurğulanıb ki, yeni TIR xətləri yük sahiblərinə ənənəvi dəniz və dəmir yolu daşımalarını tamamlayan daha çevik alternativ təqdim etməklə yanaşı, Azərbaycan və bütövlükdə Cənubi Qafqazın Çin-Avropa ticarətində tranzit mövqeyini gücləndirmək üçün əlavə imkanlar yaradır. Hazırda Çin ilə Mərkəzi və Şərqi Avropa arasında 120-dən çox marşrut üzrə TIR sistemində qeydiyyatdan keçmiş 3700-dən çox nəqliyyat vasitəsi fəaliyyət göstərir. Marşrutlar Mərkəzi Asiya, Qafqaz və Türkiyədən keçməklə geniş coğrafiyanı əhatə edir. Bu göstərici Azərbaycanın yalnız tranzit ölkə deyil, eyni zamanda, Çin mallarının Qafqaz, Türkiyə və daha sonra Avropa bazarlarına yönləndirilməsi üçün logistika qovşağı kimi imkanlarını da ön plana çıxarır.

Çin-Avropa ticarətində alternativ marşrutlara marağın artması Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun - Orta Dəhlizin də əhəmiyyətini artırır. Bu dəhliz Çin və Mərkəzi Asiyadan gələn yüklərin Xəzər dənizi, Azərbaycan və Gürcüstan üzərindən Türkiyə və Avropaya daşınmasına imkan verir. Çin-Azərbaycan istiqamətində təxminən 15 günlük çatdırılma müddəti kommersiya baxımından mühüm göstəricidir. Dəniz nəqliyyatı böyük həcmli yüklərdə maya dəyəri baxımından üstünlüyünü qorusa da, avtomobil daşımaları sürət və "qapıdan-qapıya" çatdırılma imkanları ilə fərqlənir. Bu isə elektronika, avtomobil ehtiyat hissələri, sənaye komponentləri, elektron ticarət məhsulları və digər vaxt həssas yüklər üçün TIR marşrutlarının cəlbediciliyini artıra bilər.

**"Yaşıl enerji" dəhlizində birgə həmrəylik**

P.Şahbazov Azərbaycan və Çinin "Kəmər və Yol" təşəbbüsü çərçivəsində əməkdaşlığın genişləndirilməsi və təmiz enerji sahəsində birgə layihələrin inkişafında ortaya qoyduğu birgə iradənin qarşılıqlı faydalar verdiyini xatırladıb. Çin şirkətləri quruda Günəş və dənizdə külək enerjisi, enerji saxlancı və elektrik şəbəkəsi infrastrukturu üzrə çoxsaylı müqavilələrin imzalanması, "China Energy" ilə hərtərəfli strateji tərəfdaşlığın qurulması, bir müddət əvvəl Günəş elektrik stansiyasının və "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının (KES) istifadəyə verilməsi "yaşıl enerji" quruculuğunda birgə həmrəyliyin nümunəsidir.

"Kəmər və Yol" təşəbbüsündə yeni xətt olan "yaşıl enerji" dəhlizləri həm Çin, həm də Azərbaycan üçün strateji əhəmiyyət daşıyır. Mərkəzi Asiya, Xəzər, Cənubi Qafqaz, Türkiyə və Avropanı əhatə edən bu dəhlizlər müasir İpək Yolu boyunca "yaşıl enerji" qurşağı formalaşdırmaqla Çinlə çoxşaxəli enerji tərəfdaşlığına da yol açır. "China Datang Corporation Limited" şirkətinin "yaşıl kabelin"in çəkilişində iştirakı nəzərdə tutulur. Hər iki ölkənin "Xəzər-Qara dəniz-Avropa" dəhlizinin yaradılmasında yaxın müttəfiqliyi isə Çinin qlobal tranzit gücünü, Azərbaycanın isə "yaşıl ixracatçı"ya çevrilmək statusunu möhkəmləndirir.




**"China Energy"dən günəş və külək enerjisi layihələrinə dəstək**

Səfər çərçivəsində P.Şahbazov Azərbaycan və Çinin "China Energy Engineering Corporation Limited" şirkətinin sədri Ni Zhenlə görüşüb, günəş və dənizdə külək enerjisi layihələri, enerji planlaşdırılması və elektrik şəbəkəsi üzrə tədqiqatlara dair müzakirələr aparıb. Çin şirkətinin rəhbəri Hacıqabulda 160 MVt gücündə günəş və Xəzər dənizində 200 MVt gücündə pilot külək elektrikstansiyası layihələrinin icrasının uğurla davam etdirildiyini vurğulayıb. Yeni istehsal güclərinin elektrik şəbəkəsinə inteqrasiyası və şəbəkə tədqiqatları üzrə əməkdaşlığın genişləndirilməsi imkanlarını dəstəkləyib.

Azərbaycan və Çinin "TBEA Co., Ltd" şirkəti arasında da əməkdaşlığın yeni istiqamətləri barədə anlaşma əldə olunub. "TBEA" ölkəmizin sənaye parklarında və azad iqtisadi zonalarında yüksək gərginlikli sabit cərəyan ötürücü kabellərinin və digər zəruri avadanlığın istehsalı üçün müəssisələrin yaradılması yaxın zamanlarda regionda yeni nəhəng enerji saxlama mərkəzinin fəaliyyətini təmin edəcək.

**Birgə Nazirlər Bəyanatı - enerji təhlükəsizliyinə töhvə**

Çinin "yaşıl texnologiyalar" üzrə tanınmış korporosiyalarından olan "China Energy International Group Co.,Ltd." də yeni sərmayə niyyətlərini açıqlayıb. Hazırda azad edilmiş ərazilərdə təmsil olunan şirkət (Füzuli rayonunda 60 MVt-lıq və 100 MVt-lıq günəş elektrik stansiyalarının tikintisində iştirak) "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının inkişaf etdirilməsinə dəstək verəcəyini bəyan edib.

Ümumilikdə, "Kəmər və Yol" təşəbbüsü üzrə energetika nazirlərinin IV konfransında imzalanan Birgə Nazirlər Bəyanatı enerji təhlükəsizliyi və enerji keçidinin paralel irəlilədilməsi, transsərhəd infrastruktura investisiyaların artırılması və təmiz enerji texnologiyalarına çıxışın genişləndirilməsi baxımından Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb edir.

*E.CƏFƏRLİ*

Azərbaycanla Özbəkistan dost və qardaş ölkələrdir. Zəngin tarixi irsə əsaslanan əlaqələrimiz müasir dövrümüzdə daha da intensivləşib. Bu gün ölkələrimiz yalnız ikitərəfli əməkdaşlıq çərçivəsində deyil, müxtəlif beynəlxalq platformalar müstəvisində də fəal əməkdaşlıq edir. Eləcə də, dövlət başçılarının siyasi iradəsinə uyğun olaraq, Azərbayanla Özbəkistanın müxtəlif qurumları da əməkdaşlıq edirlər.

Bu baxımdan, parlamentlərarası əlaqələr xüsusi vurğulanmalıdır. Noyabrın 25-də Bakıda keçirilən "Azərbaycan-Özbəkistan əbədi dostluq və müttəfiqlik münasibətlərinin parlament ölçüsü: əməkdaşlıq istiqamətləri və perspektivlər" mövzusuna həsr olunmuş İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu da qanunvericilik orqanları arasında əlaqələrin inkişafında vacib rol oynayır.

# İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu...

## Qanunvericilik orqanları arasında əlaqələr inkişaf edir

### Birinci iclas Xivədə baş tutmuşdu...

Forumun açılış mərasimində çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova parlamentlərimiz arasında etimad və qarşılıqlı hörmətə əsaslanan dialoqu yüksək qiymətləndirib. O bildirib ki, Birinci Parlamentlərarası Forum ötən ilin iyulunda Xivədə uğurla keçirilib və orada parlament əlaqələrinin vəziyyəti, birgə iş üçün prioritet sahələr müzakirə edilib. Parlamentin sədri deyib ki, ikinci forumun Bakıda keçirilməsi bu dialoq formatının inkişafına və əldə edilən razılaşmaların praktiki şəkildə həyata keçirilməsinin təmin olunmasına qarşılıqlı sadiqliyi nümayiş etdirir.

Parlament ölçüsünün Azərbaycan-Özbəkistan münasibətlərində mühüm yer tutduğunu vurğulayan S.Qafarova deyib ki, bu gün ölkələrimiz arasında genişmiqyaslı birgə layihələr həyata keçirilir, ticarət-iqtisadi və investisiya əlaqələri genişlənir, regionlararası əməkdaşlıq dərinləşir. Bu dövrün xüsusi nailiyyəti isə "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında Əbədi dostluq Müqaviləsi"nin imzalanmasıdır. Bu sənəd müttəfiqlik münasibətlərimizin inkişafında yeni bir mərhələni təşkil edir, həmçinin əsrlər boyu davam edən dostluq ənənələrini qorumaq və gələcək nəsillərə ötürmək üçün ortaq istəyi əks etdirir.

Diqqətə çatdırılıb ki, dövlətlərarası münasibətlərin dinamikası parlamentlərimiz üçün yeni çağırışlar yaradır. Bu baxımdan parlament diplomatiyasının rolu artır və qanunverici orqanların fəaliyyətinin ən yüksək səviyyədə əldə edilmiş razılaşmaların həyata keçirilməsinə kömək etməsi, hüquqi bazanı təkmilləşdirməsi və parlamentarlar arasında birbaşa əlaqələri genişləndirməsi vacibdir.







Sonra çıxış edən Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadi potensialını gücləndirib, infrastrukturunu modernləşdirib və beynəlxalq arenada mövqeyini möhkəmləndirib. Tənzilə Narbayeva Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün bərpasındakı tarixi roluna və hazırda Qarabağda aparılan geniş quruculuq işlərinə dərin hörmətini ifadə edib.

Senatın sədri Özbəkistanda da Prezident Şavkat Mirziyoyevin təşəbbüsü və rəhbərliyi ilə yeni Özbəkistan quruculuğunun həyata keçirildiyini diqqətə çatdırıb. Prezident Şavkat Mirziyoyev və Prezident İlham Əliyevin siyasi iradələri, şəxsi dostluğu və qarşılıqlı etimadları sayəsində ölkələrimizin müttəfiq olduğunu vurğulayan Senatın sədri bu baxımdan iki il əvvəl dövlət başçılarının imzaladığı Müttəfiqlik münasibətləri haqqında Müqavilənin və bu ilin avqust ayında Daşkənddə Ali Dövlətlərarası Şuranın üçüncü iclası çərçivəsində imzalanmış Əbədi dostluq Müqaviləsinin əhəmiyyətini qeyd edib.

Tənzilə Narbayeva iki ölkənin iqtisadi əlaqələri və həyata keçirilən geniş layihələr barədə də fikirlərini bölüşüb.

Qeyd edək ki, hər iki ölkənin parlament sədrləri tərəfindən Azərbaycan Respublikasının Milli Məclisi ilə Özbəkistan Respublikası Ali Məclisinin Senatı arasında 2027-2028-ci illər üçün parlamentlərarası əməkdaşlığın inkişafına dair praktiki tədbirlər planı ("Yol xəritəsi") imzalanıb.

Bakıda keçirilən Forum isə işini panel müzakirələri ilə davam etdirib. "Azərbaycan-Özbəkistan əbədi dostluq və müttəfiqlik münasibətlərində parlament faktoru" mövzusunda birinci panel sessiyaya Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Özbəkistan Ali Məclisi Senatının komitə sədri Əlişir Aqzamxocayev moderatorluq ediblər. Sessiyada "Ali Dövlətlərarası Şuranın üçüncü iclasında qəbul olunmuş qərarların reallaşdırılmasına parlament dəstəyi və ikitərəfli əlaqələrin strateji istiqamətləri", "İki ölkə arasında mövcud müqavilə-hüquq bazasının genişləndirilməsi üzrə qanunvericilik təşəbbüsləri", həmçinin "Regional və beynəlxalq təhlükəsizlik kontekstində parlament diplomatiyası və beynəlxalq platformalarda ümumi maraqlar naminə birgə fəaliyyət" mövzularında müzakirələr aparılıb.

Mövzular barədə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Özbəkistan Ali Məclisi Senatının komitə sədri Əlişir Aqzamxocayev, Milli Məclisin deputatı Əminə Ağazadə, Özbəkistan Senatının komitə sədri Abdulhakim Eşmuradov, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Nigar Arpadarai, Özbəkistan Senatının komitə sədrinin müavini Dilorom Feyziyeva məruzə ilə çıxış ediblər. Sonra mövzular üzrə müzakirələr aparılıb. Müzakirələrdə Milli Məclisin deputatları Sabir Hacıyev və Nigar Məmmədova çıxış edərək, Azərbaycan-Özbəkistan münasibətlərində parlamentin rolu barədə fikirlərini bildiriblər, qeyd və təkliflərini səsləndiriblər.

İkinci panel sessiya isə "Azərbaycan-Özbəkistan çoxşaxəli əlaqələrinin dərinləşdirilməsinə parlamentlərin töhfəsi: institusional əməkdaşlıq mexanizmləri kimi komitələrin rolu" mövzusuna həsr olunub. Bu sessiyaya Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov və Ali Məclis Senatının Büdcə və iqtisadi məsələlər komitəsinin sədri Erkin Qadoyev moderatorluq ediblər. Sessiyada "Ticarət, iqtisadiyyat, investisiya, sənaye və sahibkarlıq sahəsində həyata keçirilən tədbirlər fonunda birgə fəaliyyət imkanları", "Bərpaolunan enerjidən istifadə və yaşıl inkişaf üzrə qanunvericilikdə təcrübə mübadiləsi və ortaq layihələrin dəstəklənməsi", "Rəqəmsal inkişaf və süni intellekt sahəsində əməkdaşlıq, çağırışlar və perspektivlər", "Parlamentlərin kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində qarşılıqlı fəaliyyətə dəstək imkanları" mövzuları müzakirə olunub.

### "Yol xəritəsi" imzalanıb

Forum çərçivəsində keçirilən "Xalqlar arasındakı həmrəyliyin və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi üzrə parlament dialoqu" mövzusuna həsr olunan üçüncü panel sessiyaya Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva və Özbəkistan Ali Məclisi Senatının Gənclər, qadınlar, mədəniyyət və idman məsələləri komitəsində daimi əsaslarla fəaliyyət göstərən senator Malika Kadirxanova moderatorluq ediblər. Tədbirdə "Xalqlar arasında yaxınlığın gücləndirilməsinə xidmət edən mədəni əlaqələrin inkişafı istiqamətində təşəbbüslər", "Elm və təhsil sahəsində mövcud olan güclü potensialın reallaşdırılması yollarına parlamentlərin yanaşması", "Ortaq milli-mənəvi dəyərlərin qorunmasında və gələcək nəsillərə ötürülməsində mühüm amil olaraq gənclər və idman sahəsində əməkdaşlıq", "Ölkələr arasında dostluğun, qarşılıqlı anlaşmanın və humanitar əlaqələrin möhkəmləndirilməsi vasitəsi olaraq turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi" mövzuları müzakirə olunub.

Bununla da İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun panel müzakirələri başa çatıb.

### Bakı Bəyannaməsi qəbul edilib

Qeyd edək ki, İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu çərçivəsində Bakı Bəyannaməsi qəbul edilib. Milli Məclisin sədri Sahibə Qafarova bu bəyannamənin qəbul edilməsinin parlamentlərarası dialoqun davamlılığının təmin edilməsi və ona daha konkret məzmun verilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini deyib. Parlamentin spikeri bildirib ki, onun müddəalarının həyata keçirilməsi ikitərəfli əməkdaşlığın qanunvericilik əsaslarının möhkəmlənməsinə və dövlətlərimizin rəhbərləri səviyyəsində əldə olunmuş razılaşmaların icrasına töhfə verəcək.

Xatırladaq ki, noyabrın 25-də Azərbaycan Milli Məclisi və Özbəkistan Ali Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyasının birinci iclası da keçirilib.

*Nardar BAYRAMLI*

# Azərbaycandan Pakistana gözəl hədiyyə

## Dost ölkədə "ASAN xidmət" şəbəkəsinin genişləndirilməsi gündəmdə

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin xarici əlaqələri genişlənir. Bu günlərdə qurumun sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti dost Pakistan hökumətinin dəvəti əsasında İslamabad şəhərində səfərdə olub.

Agentlikdən bildirilib ki, səfər çərçivəsində Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif nümayəndə heyətini qəbul edib və "Pakistan ASAN xidmət" mərkəzinin genişləndirilməsi ilə bağlı hökumətin iclasını keçirib.

Görüş zamanı İslamabadda "Pakistan ASAN xidmət" mərkəzinin yaradılmasında və fəaliyyətinin uğurla təşkilində göstərilən davamlı dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür ifadə olunub.

Baş nazir mərkəzi mühüm təşəbbüs və əhaliyə xidmət göstərən böyük ictimai xidmət müəssisəsi kimi qiymətləndirib. Bu fəaliyyətin dövlət xidmətlərinin vahid məkanda təqdim olunmasında əsaslı dönüş yaradacağı vurğulanıb.

**Azərbaycanın müasirləşmə siyasətinin çox gözəl təzahürü**

"ASAN xidmət" dövlət xidmətlərinin keyfiyyətli, innovativ və inteqrasiya olunmuş qaydada göstərilməsini təmin edən unikal bir modeldir. Şəffaflığı, ölkəmizin müasir yanaşmalarını və innovativ tətbiqləri özündə ehtiva edən bu model Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində aparılan ardıcıl islahatların nəticəsi olaraq 2012-ci ildə yaradılıb. Bununla da vətəndaşların dövlət xidmətlərinə asan əlçatanlığı təmin edilib. Paytaxtda əsası qoyulan "ASAN xidmət" şəbəkəsi sonrakı mərhələdə bütün ölkə üzrə genişləndirilib. Qısa şəkildə belə ifadə edə bilərik ki, "ASAN xiidmət" Azərbaycanın müasirləşmə siyasətinin vətəndaşlarda yüksək məmnunluq doğuran çox gözəl təzahürüdür.

Hazırda Azərbaycanda 28 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Vətəndaşlar paytaxt Bakı ilə yanaşı, Gəncə, Sumqayıt, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən və digər ünvanlarda da "ASAN xidmət" mərkəzlərinin fəaliyyətindən bəhrələnirlər.

"ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox, "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət göstərilir. Paytaxtda və regionlarda hər gün "ASAN xidmət" mərkəzlərinə təxminən 40 min vətəndaş müraciət edir və onların məmnunluq səviyyəsi 99 faizin üzərində olur. Eyni zamanda, regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir.

**Ölkəmizin intellektual məhsul ixracı - "ASAN xidmət" brendinə dünyada artan maraq**

Qısa müstəqillik tarixində Azərbaycanın inkişafı elə yüksək səviyyəyə çatıb ki, artıq ölkəmiz xarici dövlətlərə intellektual məhsul ixracını da uğurla həyata keçirir. O cümlədən ölkəmizin intellektual brendi sayılan "ASAN xidmət"ə dünyada maraq getdikcə artır ki, bu da Azərbaycanın böyük uğurudur. Artıq ayrı-ayrı ölkələrdə də bu modelin tətbiqinə başlanıb. Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ICESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. 2014-cü ildə "ASAN xidmət" İSO 9001:2008 və OHSAS 18001:2007 standartları üzrə beynəlxalq dərəcəli sertifikatlara layiq görülüb. "ASAN xidmət", həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Bundan başqa, ICESCO-nun 2019-2021-ci illər üzrə üçillik fəaliyyət planında üzv ölkələrdə sektoral idarəçilik mexanizminin inkişaf etdirilməsi məqsədilə dövlət idarəçiliyi sahəsində Azərbaycanın "ASAN xidmət" modelindən faydalanmaq tövsiyə olunub.

Perspektivdə isə "ASAN xidmət" brendinin dünyada əhatə edəcəyi coğrafiyaların daha da genişlənəcəyi gözlənilir. Bunu son vaxtlarda Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrı-ayrı ölkələrdən əməkdaşlıqla bağlı artan müraciətlər də təsdiqləyir. Beynəlxalq əməkdaşlığa dair son nümunələrdən biri kimi İndoneziya və Azərbaycan arasında ötən ilin dekabr ayında onlayn formatda baş tutan dövlət xidmətləri üzrə Simpoziumu göstərmək mümkündür. İmzalanmış sənədlərə uyğun olaraq hazırda İndoneziya Respublikasında "ASAN xidmət" təcrübəsi əsasında yaradılmış 300-dən çox Dövlət Xidmət Mərkəzi fəaliyyət göstərir.

Artıq Avropa İttifaqının üzv dövləti olan Rumıniya da "ASAN xidmət" modelinə böyük maraq göstərir. Ötən ilin dekabr ayında Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Rumıniya Hökumətinin Baş Katibliyinin dəvəti əsasında bu ölkəyə səfəri baş tutub. Səfər çərçivəsində "ASAN xidmət"in Rumıniyada tətbiqi ilə bağlı növbəti müzakirələr aparılıb. Eyni zamanda, Rumıniya Hökumətinin Baş Katibliyinin təşkilatçılığı ilə keçirilən "Dövlət Sektorunda İnnovasiya Forumu"nda "ASAN xidmət"ə dair mükafat ilk dəfə olaraq Avropa İttifaqına üzv ölkənin nümayəndələrinə təqdim olunub. Xatırladaq ki, bundan öncəki dövrdə müvafiq mükafat Afrika qitəsində dövlət xidmətləri sahəsində qabaqcıl nailiyyətlər əldə etmiş dövlətlərin nümayəndələrinə təqdim edilib.

Həmçinin bir qədər bundan əvvəl Sudan Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Müaviyə Osman Xalidin rəhbərlik etdiyi nümayəndə heyəti "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub. Nazir müavini "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinin, buradakı innovativ yeniliklərin onlarda yüksək təəssürat yaratdığını və sözügedən təcrübənin öz ölkəsində tətbiqində maraqlı olduqlarını ifadə edib.

Cari ilin iyul ayında Azərbaycanın "ASAN xidmət" modeli BMT-nin "Dövlət institutlarının transformasiyası: İnnovasiyanın, iştirakın və inklüzivliyin inkişafı" mövzusunda Tbilisidə baş tutan Dövlət Xidməti Forumunda geniş təqdim olunub. Bundan əvvəl isə "ASAN xidmət " BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Dayanıqlı İnkişaf Məqsədi 16 (DİM 16) üzrə Konfransda diqqət mərkəzində



olub.

**İslamabaddan regionlara doğru**

"ASAN xidmət" dost Pakistana cari il yanvarın 14-də gəlib. Qeyd olunan tarixdə bu ölkənin Islamabad şəhərində "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayıb. İslamabadda baş tutan açılış mərasimdə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif, Pakistan hökumətinin üzvləri, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak ediblər. Tədbirdə vurğulanıb ki, 2025-ci il sentyabrın 10-da Pakistan İslam Respublikasının Baş nazirinin iştirakı ilə "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Pakistan İslam Respublikasında "ASAN xidmət" təcrübəsinin tətbiqi istiqamətində əməkdaşlığa dair Saziş" imzalanıb. Prezident İlham Əliyevin tapşırığına əsasən Dövlət Agentliyi tərəfindən "ASAN xidmət" təcrübəsinin Pakistanla paylaşılması istiqamətində əməkdaşlıq həyata keçirilib. Mərkəzin qurulması istiqamətində Pakistan tərəfinə zəruri dəstək göstərilib.

"Pakistan ASAN xidmət" mərkəzində ilkin mərhələdə 12 dövlət qurumu tərəfindən 64 xidmət təqdim olunur. Mərkəzdə "ASAN xidmət" standartları, ASAN könüllük proqramı və ASAN-ın innovativ həlləri tətbiq edilir. Mərkəzlə tanışlıqdan sonra Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "Pakistan ASAN xidmət" mərkəzinin gələcək inkişaf konsepsiyası, innovativ həllər və Azərbaycanın DOST konsepsiyası ilə bağlı Pakistan nümayəndə heyəti üçün təqdimat edib. Pakistanın Baş naziri açılış mərasimindəki çıxışında "ASAN xidmət"i dövlət xidmətlərinin göstərilməsində mütərəqqi və innovativ bir model kimi qiymətləndirib. O, bütün bu texnologiyanın Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan tərəfindən Pakistana hədiyyə edildiyini xüsusi olaraq vurğulayıb.

İslamabadda açılan mərkəzin ötən aylardakı fəaliyyəti uğurlu olub və "ASAN xidmət"in populyarlığı qısa müddətdə dost Pakistanda da sürətlə artıb. Artıq ölkədə yeni belə mərkəzlərin açılması cəmiyyətin sosial sifaişinə çevrilib. Təsadüfi deyildir ki, yuxarıda bəhs olunan görüşdə Pakistanda "ASAN xidmət" mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və ölkə üzrə genişləndirilməsi, eləcə də Dövlət Agentliyinin mütəxəssisləri tərəfindən aparılmış auditin nəticələri müzakirə olunub. Baş nazir audit hesabatında əks olunan təkmilləşdirmə istiqamətlərinin prioritet qaydada icrası ilə bağlı tapşırıqlar verib.

O, Azərbaycanın təcrübəsinə uyğun olaraq birbaşa ona tabe olan səlahiyyətli qurumun yaradılması ilə bağlı tapşırıq verib. Həmçinin "Pakistan ASAN xidmət" modelinin bölgələrdə tətbiqi və xidmət şəbəkəsinin genişləndirilməsi üçün əyalət hökumətləri ilə əməkdaşlığın gücləndirilməsi tapşırılıb.

Dövlət Agentliyinin sədri ilə Pakistanın İnformasiya texnologiyaları və telekommunikasiya üzrə federal naziri arasında da görüş keçirilib. Tərəflər "Pakistan ASAN xidmət" modelinin genişləndirilməsi və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində müzakirələr aparıblar.

*Mübariz ABDULLAYEV*

# “Yeni dövrün çağırışları: güclü iqtisadiyyat və dayanıqlı inkişaf strategiyası”









Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində Gəncə İdman Sarayında keçirilən “Heydər Əliyev məktəbi” layihəsinin dördüncü mərhələsinin - qış məktəbinin ikinci günündə gənc fəallarla “Yeni dövrün çağırışları: güclü iqtisadiyyat və dayanıqlı inkişaf strategiyası” mövzusunda görüş keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Görüşdə YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, YAP Veteranlar Şurasının üzvü, Auditorlar Palatasının sədri Vahid Novruzov, Milli Məclisin deputatı Kamran Bayramov və Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov çıxış ediblər. Vurğulanıb ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli iqtisadi inkişaf strategiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün çağırışlarına uyğun şəkildə uğurla davam və inkişaf etdirilir.

Həmçinin dayanıqlı iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsi, aqrar sektorun və insan kapitalının inkişafı, eləcə də “Şəhərsalma və Memarlıq İli” çərçivəsində regionların müasir standartlara uyğun yenidən qurulması və “Böyük Qayıdış” prosesinin iqtisadi əsasları ətrafında geniş fikir mübadiləsi aparılıb.

Natiqlər müasir iqtisadi çağırışlara adekvat cavab verilməsi baxımından rəqəmsal transformasiyanın sürətləndirilməsinin, yaşıl enerji və innovativ texnologiyaların tətbiqinin prioritet əhəmiyyət daşıdığını vurğulayıblar. Qeyd olunub ki, bu proseslərin əsas iştirakçıları və aparıcı qüvvələri məhz gənclər olmalıdır. Bu baxımdan onların elmi-intellektual potensialının artırılması, iqtisadi biliklərə yiyələnməsi və dövlət siyasətinin həyata keçirilməsində fəal iştirakı xüsusi əhəmiyyət kəsb edir.

Çıxışlarda maliyyə nəzarəti və audit mexanizmlərinin iqtisadi şəffaflığın və hesabatlılığın təmin edilməsindəki əhəmiyyəti, aqrar sektorun müasir texnologiyalar əsasında inkişafı, eləcə də işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işlərinin ölkə iqtisadiyyatına mühüm töhfələr verdiyi də diqqətə çatdırılıb.

Bildirilib ki, gənclərin yeni texnologiyalara, rəqəmsal həllərə və sahibkarlıq təşəbbüslərinə cəlb edilməsi, elmə və innovasiyalara marağının artırılması, onların vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərə sadiq və yüksək liderlik keyfiyyətlərinə malik şəxsiyyətlər kimi formalaşdırılması dövlət gənclər siyasətinin əsas prioritet istiqamətlərindəndir. Diqqətə çatdırılıb ki, gənclərin bilik və bacarıqlarının inkişafına, təşəbbüskarlığının və fəallığının dəstəklənməsinə yönəlmiş tədbirlər onların “Böyük Qayıdış” prosesində və regionların sosial-iqtisadi tərəqqisində daha fəal iştirakına geniş imkanlar yaradır.

Görüşdə gənc fəallardan Fərəh Məcidzadə, Vasif Nəbiyev, Əlihüseyn İbrahimov, Şəfiqə Qədirova, Rəhman Şammadov mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Sonra iştirakçıların sualları cavablandırılıb.

Daha sonra gənc fəallar arasında boulinq yarışı təşkil olunub. Eyni zamanda, Gəncə şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzinin (UGİM) əməkdaşlarının təşkilatçılığı ilə komandalar arasında “İdeoloji duel” adlı məntiq və strategiya yarışı keçirilib.

# Avropa Parlamentinin ikili standartları: siyasi qərəz, selektiv yanaşma və itirilən etimad

## Azərbaycana qarşı növbəti təzyiq kampaniyası cəhdi

Avropa İttifaqının Cənubi Qafqaz siyasəti ilə daban-dabana zidd olan Avropa Parlamentinin mövqeyi, xüsusilə bu qurumun son illərdə Azərbaycanla bağlı kəskin qərəzə söykənən siyasəti Brüsselin regiondakı siyasi prosesləri nə dərəcədə obyektiv qiymətləndirdiyi barədə ciddi suallar yaradır. Məntiq etibarı ilə Azərbaycanın yaratdığı yeni geosiyasi reallıqlar, Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar və sülh gündəliyinin irəli aparılması Avropa institutlarından daha məsuliyyətli və balanslı mövqe tələb edir - amma AP-nin ayrı-ayrı komitələrində hazırlanmış “sənədlərin” məzmunu göstərir ki, qurumun müəyyən siyasi dairələri hələ də regiona əvvəlki münaqişə prizmasından yanaşmağa üstünlük verirlər, hətta bəzi məqamlarda bu münaqişələrin yenidən alovlanmasını arzulayırlar. Burada diqqət çəkən əsas məqam təkcə Azərbaycana yönələn tənqidlərin məzmunu deyil, eyni zamanda, eyni meyarların regionun digər dövlətlərinə münasibətdə tətbiq edilməməsidir. Ölkəmizə qarşı aparılan kampaniyaların qondarma məzmununu təşkil edən “insan hüquqları”, “demokratiya”, “hüququn aliliyi” və “beynəlxalq öhdəliklər” kimi universal prinsiplərin siyasi məqsədlərə uyğun olaraq fərqli şəkildə şərh edilməməsi Avropa Parlamentinin özünün elan etdiyi dəyərlərlə ziddiyyət təşkil edir. Halbuki Azərbaycanda insan hüquqlarının qorunması ən yüksək şəkildə təmin olunur, demokratik inkişaf prinsiplərinə sadiqlik ön planda tutulur, media azadlığı qorunur, eyni zamanda Azərbaycan atdığı bütün addımlarda beynəlxalq hüquqa hörmət nümayiş etdirir. Paralel olaraq Cənubi Qafqazda sabitliyin təmin olunması, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və yeni iqtisadi əməkdaşlıq imkanlarının yaranması Avropa üçün də mühüm strateji əhəmiyyət daşıyır. Belə bir şəraitdə Brüsselin bəzi siyasi dairələrinin qarşıdurmanı təşviq edən ritorikaya üstünlük verməsi nə regionun, nə də Avropanın uzunmüddətli maraqlarına cavab vermir. Əslində, bu yanaşma Avropa institutlarının siyasi nüfuzuna və vasitəçilik imkanlarına da zərbə vurur.

## AP-nin siyasi gündəliyi: obyektivlik prinsipi maraqlara qurban verilir

Qeyd edək ki, AP-nin Xarici Əlaqələr Komitəsində (AFET) Azərbaycan-Avropa İttifaqı (Aİ) və Ermənistan-Avropa İttifaqı münasibətlərinə dair tövsiyə layihələri təqdim olunub. Dan Barnanın Azərbaycan, Miriam Lexmannın isə Ermənistan üzrə hazırladığı layihələr regionun postmünaqişə reallıqlarından tamamilə uzaq, birtərəfli siyasi konyunkturaya xidmət edən sənədlərdir. Konkret olaraq Azərbaycanla bağlı hazırlanan tövsiyə sənədlərində diqqət çəkən əsas xüsusiyyət faktların bütöv mənzərədə deyil, əvvəlcədən müəyyənləşdirilmiş siyasi mövqeyə uyğun seçilməsidir. Dan Barnanın hazırladığı Azərbaycan üzrə sənədin mənbələri və məsləhətləşmə tərəfləri ətrafında yaranan suallar da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Sənədin hazırlanması zamanı Ermənistanın Avropa İttifaqı yanında nümayəndəliyi və Azərbaycana qarşı fəaliyyət göstərən xaricdə fəaliyyət göstərən anti-Azərbaycan mühacir qruplaşması (ASİMKOM) ilə təmasların göstərilməsi araşdırmanın obyektivliyi məsələsini gündəmə gətirir. Çünki Azərbaycanla münasibətlərdə konkret siyasi və maraq mövqeyi olan tərəflərin rəylərinin sənədin məzmununa təsiri müstəqil qiymətləndirmə üçün ciddi metodoloji problem yaradır.

Dünyanın hər yerində analoji standarta riayət olunur - hesabatın etibarlılığı yalnız onun müəllifinin və ya təqdim olunduğu qurumun statusu ilə müəyyənləşmir. Əsas meyar istifadə edilən məlumatların mənbəyi, onların yoxlanılması və fərqli mövqelərin nəzərə alınmasıdır. Əgər bir sənəddə Azərbaycanın mövqeyinə yer verilmədən, ölkəmizə qarşı kampaniya aparan qrupların iddiaları siyasi tövsiyələrə çevrilirsə, burada obyektiv təhlildən daha çox birtərəfli yanaşma müşahidə olunur. Bu isə Avropa Parlamentinin özünü müstəqil siyasi qiymətləndirmə mərkəzi kimi təqdim etmək iddiasını zəiflədir. Azərbaycanla bağlı qənaətlərin real vəziyyətə uyğun formalaşdırılması üçün ölkənin mövqeyi, təhlükəsizlik maraqları və regionda baş vermiş fundamental dəyişikliklər də nəzərə alınmalıdır. Əks halda, hazırlanan sənədlər münasibətləri yaxşılaşdırmaq əvəzinə, mövcud siyasi etimadsızlığı daha da dərinləşdirəcək.

## Avropa Parlamentinin mənəvi legitimlik problemi - rüşvət yuvasında korrupsiya qalmaqalları

Avropa Parlamentinin Azərbaycana demokratiya, şəffaflıq və siyasi məsuliyyət barədə iradlar ünvanlaması qurumun öz fəaliyyətindəki problemləri də diqqət mərkəzinə gətirir. Xüsusilə 2022-ci ilin dekabrında üzə çıxan Qətər korrupsiya qalmaqalı Avropa Parlamentinin institusional nüfuzuna ciddi zərbə vurdu. Belçika hüquq-mühafizə orqanlarının araşdırmaları nəticəsində parlamentin keçmiş vitse-prezidenti Eva Kailinin də adı bu işdə hallandı. Hadisə Avropa siyasi elitasında korrupsiya ilə mübarizə, lobbiçilik fəaliyyətinin şəffaflığı və deputatların məsuliyyəti məsələlərini geniş müzakirəyə çıxardı. Bu qalmaqalın yaratdığı sualların hələ də Avropa institutlarının etimad gündəliyində qalması təsadüfi deyil.

Prezident İlham Əliyevin Avropa Parlamentinin fəaliyyəti ilə bağlı sərt mövqeyi də məhz bu ziddiyyətlər fonunda qiymətləndirilməlidir. Dövlət başçısının qurumun korrupsiya və islamofobiya problemlərini açıq şəkildə gündəmə gətirməsi Azərbaycanın beynəlxalq münasibətlərdə ikili standartlarla barışmaq niyyətində olmadığını göstərir. Burada prinsipial məsələ hər hansı təşkilatın tənqid edilməsinə qarşı çıxmaq deyil. Əksinə, tənqid hüququ qarşılıqlı məsuliyyət və eyni ölçülərin hamıya tətbiqi ilə legitimlik qazanır. Öz daxilində ciddi korrupsiya qalmaqalları yaşamış bir siyasi institutun başqa dövlətlərə qarşı qərəzli münasibəti bütün həqiqətləri üzə çıxarır - Avropa Parlamentinin nüfuzunu bərpa etməsi üçün ilk növbədə öz daxilində şəffaflıq və hesabatlılıq standartlarını gücləndirməsi, siyasi qərarların lobbi qruplarının təsirindən qorunmasını təmin etməsi vacibdir.

## Ermənistan yeni Konstitusiya layihəsi təqdim edir, AP isə hələ də köhnə havasını çalır

Avropa Parlamentinin Azərbaycan və Ermənistanla bağlı paralel sənədləri müqayisə edildikdə yanaşma fərqləri daha aydın görünür. Miriam Lexmannın Ermənistan üzrə hazırladığı hesabatda ölkədəki daxili siyasi proseslər, müxalifət nümayəndələrinə və din xadimlərinə münasibət kimi məsələlərin lazımi səviyyədə əksini tapmaması selektiv yanaşma barədə suallar yaradır. İnsan hüquqlarının müdafiəsini əsas prioritetlərindən biri kimi təqdim edən qurumun Ermənistan daxilindəki problemlərə münasibətdə daha ehtiyatlı davranması ümumi prinsiplərin ardıcıllığına şübhə doğurur. Digər tərəfdən, Azərbaycanla bağlı sənədlərdə hüquqi qiymətləndirmə tələb edən konkret məsələlərin siyasi mülahizələrlə əvəzlənməsi də ikili standartların göstəricisi kimi çıxış edir.

Daha ciddi problem isə Ermənistan-Azərbaycan sülh prosesinə münasibətdə özünü büruzə verir. Hazırda münasibətlərin normallaşması üçün əsas məsələlərdən biri Ermənistanın hüquqi-siyasi sənədlərində Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasıdır. Ermənistan Konstitusiyasının preambulasında yer alan müstəqillik bəyannaməsinə istinad bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın bu məsələdə mövqeyi aydındır: davamlı sülh qarşılıqlı ərazi bütövlüyünün tanınması və bir-birinə qarşı iddialardan imtina edilməsi üzərində qurulmalıdır. Bu tələbi sülhə maneə kimi təqdim etmək isə problemin mahiyyətini təhrif edir. Avropa Parlamentinin Ermənistan daxilindəki siyasi qüvvələrin mövqelərindən asılı olmayaraq, sülhün hüquqi əsaslarının formalaşmasını dəstəkləməsi daha düzgün yanaşma olardı. Nəzərə alsaq ki, Ermənistan siyasi rəhbəliyinin geniş ictimaiyyətə təqdim etdiyi yeni Konstitusiya layihəsində bu tələb nəzərə alınıb və Azərbaycana qarşı ərazi iddiaları öz əksini tapmayıb. Beləliklə, AP yenə də özünü pis vəziyyətdə qoyur - Ermənistan Konstitusiya dəyişikliyi tələbini haqlı saydığı halda bu Avropa institutu yersiz canfəşanlıq edir.



## AP-nin Avropanın strateji maraqlarına zidd mövqeyi

Avropa Parlamentinin Azərbaycana qarşı hədəfli sanksiyalar tətbiq olunması ilə bağlı çağırışları da Brüsselin siyasi yanaşmasındakı ziddiyyətləri üzə çıxarır. İlk növbədə, bu cür təkliflərin regional və beynəlxalq reallıqlar nəzərə alınmadan irəli sürülməsi diqqət çəkir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin etdikdən sonra regionda yeni siyasi-iqtisadi imkanlar yaradıb. Bu prosesin qarşısını almağa və ya ölkəmizə təzyiq mexanizmləri tətbiq etməyə yönələn təşəbbüslər isə Cənubi Qafqazda qarşılıqlı etimadın formalaşmasına xidmət etmir. Üstəlik, otuzillik işğal dövründə Azərbaycan ərazilərinin dağıdılması, yüz minlərlə insanın doğma yurdlarından didərgin salınması və beynəlxalq hüququn fundamental prinsiplərinin pozulması fonunda indiki sanksiya çağırışlarının selektiv xarakteri xüsusilə nəzərə çarpır.

Digər tərəfdən, Avropa İttifaqının enerji təhlükəsizliyi və nəqliyyat bağlantıları sahəsində Azərbaycanla əməkdaşlığı Brüsselin siyasi ritorikasına real məhdudiyyətlər qoyur. Azərbaycan Avropanın enerji təchizatının şaxələndirilməsində mühüm tərəfdaşdır. 2025-ci ildə Avropa İttifaqına 12,5 milyard kubmetrdən artıq Azərbaycan qazının ixracı bu əməkdaşlığın miqyasını göstərir. Bununla yanaşı, Orta Dəhlizin inkişafı, Xəzər hövzəsi ilə Avropa arasında nəqliyyat əlaqələrinin genişləndirilməsi və Azərbaycanın regional logistika mərkəzi kimi mövqeyinin möhkəmlənməsi Avropa üçün də strateji əhəmiyyət daşıyır. Bunu həm Avropa İttifaqına daxil olan aparıcı ölkələrin dövlət rəhbərləri, həm də Aİ-dən kənar Avropa ölkələrinin rəsmiləri açıq əşkildə bildirirlər. Belə bir tərəfdaşa qarşı siyasi təzyiq ritorikasının gücləndirilməsi Avropanın öz maraqları ilə ziddiyyət yaradır. Əslində, Brüsselin qarşısında duran seçim kifayət qədər aydındır: ya Cənubi Qafqazda yaranmış yeni reallıqlara uyğun rasional tərəfdaşlıq siyasəti yürütmək, ya da siyasi qərəz naminə regiondakı təsir imkanlarını zəiflətmək. Azərbaycanın müstəqil siyasətinə kənardan təzyiq göstərmək cəhdləri nəticə verməyəcək. Avropa Parlamentinin qəbul etdiyi tövsiyə xarakterli sənədlər də Azərbaycanın suveren qərarlarını müəyyənləşdirə bilməz. Əsas məsələ Avropa institutlarının bu reallığı nə vaxt qəbul edəcəyi və regionun gələcəyinə münasibətdə konstruktiv mövqeyə nə zaman üstünlük verəcəyidir.

***Pərviz SADAYOĞLU***

# İxrac hesablaşmaları qaydası təkmilləşdirilir

Prezident İlham Əliyevin imzaladığı müvafiq Fərmana əsasən, ixracda hesablaşmaların tənzimlənməsi ilə bağlı əlavə tədbirlər və 24 iyun 1997-ci il tarixli fərmanla təsdiq edilmiş "İdxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişiklik edilib. Sənədə əsasən, ixrac olunan mallardan əldə olunmuş vəsaitin Azərbaycana köçürülməsi, ixracatçılar tərəfindən gömrük bəyannamələri və ixrac müqavilələrinə dair məlumatların vahid elektron sistemdə əks olunması, bu sahədə nəzarət və məsuliyyət tədbirləri nəzərdə tutulur.

İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri, Dövlət Gömrük Komitəsi (DGK) isə xarici ölkələrə malların ixracı üzrə hesablaşmaların aparılması qaydalarına dair hazırladığı təklifləri Mərkəzi Banka (MB) təqdim edəcək. MB isə həmin təkliflər əsasında ixrac hesablaşmalarının aparılması qaydalarını müəyyənləşdirəcək.

Nazirlər Kabineti isə ixrac olunan malların müqabilində əldə edilən vəsaitin Azərbaycandakı müvəkkil banklara köçürülməsinə dair hesablaşma və məsuliyyət tədbirlərini təkmilləşdirən qərar verəcək.

## Məlumatlar "İntellektual gömrük" sistemi vasitəsilə ötürüləcək

Qaydalara əsasən, ixrac olunan malların müqabilində əldə edilmiş vəsaitin Azərbaycana köçürülməsinə və gətirilməsinə Dövlət Gömrük Komitəsi nəzarət edəcək. Bu məqsədlə ixracatçılar tərəfindən gömrük bəyannamələri və ixrac müqavilələri daxil olmaqla, mallar barədə müvafiq məlumatların "İntellektual gömrük" informasiya sistemi vasitəsilə müvəkkil banklara ötürülməsi təmin ediləcək. Müvəkkil banklar isə ixrac müqavilələri üzrə əldə edilmiş vəsaitin hesablara daxil olması, habelə vaxtında köçürülməməsi barədə məlumatı üç iş günü ərzində həmin informasiya sistemi vasitəsilə Komitəyə təqdim edəcək.




Beləliklə, ixrac olunan malların müqabilində əldə edilmiş vəsaitin Azərbaycana köçürülməsinə və gətirilməsinə birbaşa Dövlət Gömrük Komitəsi nəzarət edəcək.

Eyni zamanda, bu prosesdə Mərkəzi Bankı bütün zəruri məlumatlarla təmin edəcək.

Qeyd edək ki, hazırda Dövlət Gömrük Komitəsi bütün ixracatçılar tərəfindən gömrük bəyannamələri və ixrac müqavilələri də daxil olmaqla, ixrac olunan mallar barədə aidiyyəti məlumatların elektron gömrük xidməti vasitəsilə Mərkəzi Banka ötürülməsini təmin edir. Müvəkkil banklar şəxslərin aidiyyəti hesablarına ixrac müqavilələri üzrə xarici valyutanın daxil olması barədə məlumatı MB tərəfindən müəyyən edilmiş formada və qaydada vəsait daxil olduğu gündən 3 iş günü ərzində Mərkəzi Banka ötürür. MB müvəkkil banklardan daxil olmuş məlumatlar əsasında ixrac olunan malların müqabilində vəsaitlərin bank hesabına köçürülmədiyini təsdiqlədiyi halda ixracatçılar barədə dərahal nəzarət tədbirləri görülür. Yəni, Dövlət Gömrük Komitəsi və Mərkəzi Bank idxal-ixrac əməliyyatlarından daxil olunan valyutanın hərəkətini birgə izləyir. Bundan sonra həmin sistem davam etdirilməklə daha çevik və təkmil nəzarət sxemi qurulacaq.

"Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"na əsasən, ixrac əməliyyatları zamanı əldə olunmuş vəsaitin qanunvericiliyə uyğun olaraq 180 gün ərzində ölkəyə gətirilməsi təmin olunmalıdır. Bəzi hallarda ixracatçıların fürsətçilliyi valyutanın ölkədən kənarda qalmasına səbəb olur ki, bu da idxal-ixrac qaydalarının pozulması deməkdir. Gömrük və bank statistikası təsdiq edir ki, bəzən ixracın dəyəri valyuta köçürmələrinin ölkəyə tam qaytarılmadığına dəlalət edir. Bəzi fiziki şəxslər və sahibkarlıq subyektləri ixrac etdikləri mal və xidmətlərin real ixrac dəyərinə uyğun həmin vəsaiti geri qaytarmır, müxtəlif sahələrə yönəldərək faktiki olaraq öz mənfəətləri naminə Azərbaycanın pul siyasəti hədəflərinə, valyuta tənzimlənməsi qaydalarına qarşı çıxırlar. Bütün bu hallar gömrük və bank məlumatlarının əlaqələndirilməsində yeni yanaşmanı, əməliyyatlarla bağlı proseslərə nəzarətin daha da gücləndirilməsini zəruri edir.

İnstitusional islahatlar çərçivəsində bəyannamə sisteminin təkmilləşdirilməsi də mühüm yer tutur. Belə ki, Azərbaycan gömrüyündə bəyannaməçinin, mal sahibinin, səlahiyyəti olan digər şəxslərin və ya onların nümayəndələrinin iştirakı olmadan malların və nəqliyyat vasitələrinin yoxlanılması barədə tərtib olunan aktın 2 iş günü ərzində təqdim edilməsi nəzərdə tutulur. Eyni zamanda, gömrük auditinin, o cümlədən kameral və səyyar gömrük auditinin aparılmasının xüsusiyyətlərinin tənzimlənməsi, gömrük rəsmiləşdirilməsinin bəyannaməçinin seçimi və gömrük orqanlarının razılığı ilə digər yerlərdə də aparılması, qısa idxal bəyannaməsinin beynəlxalq təcrübəyə uyğun olaraq ləğvi müddətinin tənzimlənməsi də yeniliklər sırasındadır.

## İdxal-ixrac əməliyyatlarında yeni tənzimlənmə

şikliklər edilib. Dəyişikliklər idxal-ixrac əməliyyatlarında müasir tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərinin daha geniş tətbiq olunması, Azərbaycan ərazisindən keçən tranzit dəhlizlərinin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, həmin dəhlizlərə əlavə tranzit yük axınlarının cəlb edilməsi, yükdaşımaların keyfiyyətinin yüksəldilməsi, yüklərin çatdırılma müddətinin azaldılması, gömrük sistemində mövcud olan müasir texnologiya və avadanlıqdan istifadə etməklə, gömrük işi sahəsində risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin daha da təkmilləşdirilməsinə xidmət edir. Eləcə də, gömrük nəzarətinin risk əsasında həyata keçirilməsi, beynəlxalq ticarət-təchizat zəncirinin fəaliyyətində təhlükəsizliyin təmin edilməsi, xarici ticarətin asanlaşdırılması, gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi əsas məsələlər kimi müəyyənləşib.

**Qaydalara əsasən, ixrac olunan malların müqabilində əldə edilmiş vəsaitin Azərbaycana köçürülməsinə və gətirilməsinə Dövlət Gömrük Komitəsi nəzarət edəcək. Bu məqsədlə ixracatçılar tərəfindən gömrük bəyannamələri və ixrac müqavilələri daxil olmaqla, mallar barədə müvafiq məlumatların "İntellektual gömrük" informasiya sistemi vasitəsilə müvəkkil banklara ötürülməsi təmin ediləcək**

## Gömrük bəyannaməsi sadələşdirilir

*E.CƏFƏRLİ*

# Avropa qaz böhranı astanasında...

## Yanacaq ehtiyatlarının azalması Azərbaycanın Aİ-nin enerji təhlükəsizliyində rolunu daha da gücləndirir

Avropada təbii qazın topdansatış qiymətləri son həftələrdə yüksək artım nümayiş etdirməkdədir. "Mavi yanacağın" 1000 kubmetrinin qiyməti noyabrın 25-də 1000 dolları ötərək 2022-ci ilin sonlarından sonrakı ən yüksək qiymət diapazonuna daxil olub. Qaz İxrac edən Ölkələr Forumunun (GECF) hesabatına əsasən, ötən ilin eyni dövrünə nisbətən qiymətlər 163 faiz artıb.

Qiymət artımının əsas səbəbləri Yaxın Şərqdəki gərginlik, qlobal LNG təchizatı və marşrutlarla bağlı risklərin güclənməsi, soyuq hava proqnozları fonunda Aİ-nin qaz anbarlarının doluluq səviyyəsinin qənaətbəxş olmamasıdır. Hazırda Avropanın qaz anbarlarının doluluq əmsalı təxminən 69 faizə bərabərdir. Oktyabrın sonunda bu rəqəm 74,6 faiz təşkil edirdi. Qış mövsümünün başlanması isə ehtiyatların aylıq azalmasını 3-4 dəfə artıra bilər.

Ehtimallara görə, körfəz bölgəsindən LNG ixracının uzunmüddətli kəsilməsi qarşıdakı dövrdə təbii qaz qiymətlərinə daha çox yuxarı istiqamətli təzyiq göstərəcək, çünki belə olan halda Avropa Asiya alıcıları ilə daha intensiv rəqabət aparmalı olacaq. "Wood Mackenzie" tədqiqat və konsaltinq şirkətinin məlumatına görə, Avropanın tarixən aşağı təbii qaz saxlama səviyyələri 2026-2027-ci illərin qış fəslində təchizat təhlükəsizliyini riskə atır.

## Avropa qışa son 13 ilin ən aşağı qaz ehtiyatları ilə daxil olur

Hidrometeoroloji proqnozlar da psixoloji olaraq bazara öz təsirlərini göstərməkdədir. Avropada qış mövsümünün sərt keçəcəyi ilə bağlı proqnozlar enerji bazarında narahatlığı daha da artırır. Bu isə enerji istehlakının artacağı gözləntiləri fonunda təbii qazın qiymətində sürətli bahalaşmanın davam edəcəyinə işarə edir. Avropanın əsas qaz ticarət mərkəzi hesab olunan Niderlandın "TTF" seqmentində qiymətlərin qısa müddətdə kəskin yüksəlməsi qitənin qarşıdakı qış aylarında enerji təminatı ilə bağlı riskləri yenidən gündəmə gətirir. Paralel olaraq, mayeləşdirilmiş təbii qaz tədarükündəki məhdudiyyətlər, Hörmüz boğazındakı gərginliklər və Avropanın ən böyük LNG ixracatçısı olan Qətərin qaz istehsalı qurğularına endirilən zərbələr nəticəsində nəqlin azalması, habelə Asiya bazarlarında artan rəqabət Avropanın enerji təhlükəsizliyinə əlavə təzyiqlər yaradır.

Beynəlxalq enerji institutları Avropanın bu mövsümdə ciddi çətinliklərlə üzləşəcəyini istisna etmir. Beynəlxalq Enerji Agentliyinin (IEA) açıqladığı "Qlobal Qaz Təchizatı Təhlükəsizliyinin Qiymətləndirilməsi" hesabatında Aİ-nin 2026- 2027-ci illərin qış mövsümünə son 13 ilin ən aşağı təbii qaz ehtiyatları ilə daxil olduğunu xatırladır.



Belə bir şəraitdə Azərbaycanın Avropa üçün etibarlı enerji tərəfdaşı kimi rolu və qaz ixracının əhəmiyyəti bir daha aktuallaşır, Aİ-nin ğlkəmizin qazına olan tələbatı daha da artır. Azərbaycan 2026-cı ilin doqquz ayında Avropaya 8,6 milyard kubmetr təbii qaz ixrac çox qaz çıxarılmasına nail olmaq məqsədilə ölkəmizdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Avropada qaza olan ehtiyacların artması reallığı nəzərə alınaraq TAP-ın səhmdarları kəmərin genişləndirilməsi işlərinə də başlayıb. Azərbaycan təbii qazını Avropaya nəql edən TAP boru kəmərinin genişləndirilməsi üzrə bazar araşdırması başlayıb.

## Azərbaycanın Pan-Avropa qaz təchizatçısı kimi mövqeyi güclənir

edib. Ötən dövr ərzində Avstriya və Almaniyaya da qaz tədarükünə başlanmaqla, Avropa regionuna qazın nəql olunduğu ölkələrin sayı 12-ə çatıb. Hazırda TAP kəməri ilə birbaşa 10 Aİ ölkəsinə qaz çatdırılır.

Ötən illərdə müxtəlif regionlardakı qaz infrastrukturlarında yaranan fasilələr və innektorlardakı dayanmalara baxmayaraq, Azərbaycan qaz nəql etdiyi ölkələrin heç birinin təchizatında ara verməyib. Bu, ölkəmizin bir daha etibarlı və məsuliyyətli tərəfdaş olduğunu təsdiqləyir. Azərbaycanın bu həssas davranışı Avropa ölkələri tərəfindən təqdir edilib.

Azərbaycanın Avropanın qaza olan tələbatının ödənilməsi üçün imkanları isə olduqca genişdir. Ölkəmizin təsdiq olunmuş təbii qaz ehtiyatları, təxminən, 2,5 trilyon kubmetrdən 2,6 trilyon kubmetrədək qiymətləndirilir. Həmin ehtiyatların əsas hissəsi "Şahdəniz", "Abşeron", "Babək" və "Ümid" kimi iri yataqların payına düşür. Son illər hasilatı artırmaqla Avropa bazarlarına daha Boru kəmərinin operatoru "TAP AG" şirkəti bəyan edib ki, TAP hazırda 3 genişləndirmə ssenarisi təklif edir: məhdud genişləndirmə (təqribən ildə 14,4 milyard kubmetr), qismən genişləndirmə (illik 17,1 milyard kubmetr) və tam genişləndirmə (ildə təxminən 20 milyard kubmetr). Nəticədə Azərbaycanın Aİ-yə qaz tədarükləri üçün yeni imkanlar açılacaq.

## TransXəzər qaz kəməri aktuallaşır

Beynəlxalq Enerji Agentliyinin analitikləri hesab edirlər ki, Avropada qaz böhranı Xəzərin digər resurs nöqtələrini - Türkmənistan yanacaq mənbələrini də səfərbər etməyə ehtiyacları artırır. Bu baxımdan TransXəzər qaz kəmərinin çəkilişi aktual olaraq ön plana çıxır. Türkmənistan qazı bu kəmərlə Azərbaycana və Türkiyəyə, oradan isə Avropaya nəql oluna bilər. Xatırladaq ki, 3 il əvvəl Azərbaycan, Türkiyə və Türkmənistan prezidentləri Türkmənbaşı şəhərində üçtərəfli görüşdə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin yaradılması ilə yanaşı, Türkmənistan qazının Avropaya nəql olunması yollarını müzakirə ediblər. Həmçinin, Avropa İttifaqı ölkələri digər türk dövlətlərinin - Özbəkistan və Qazaxıstanla yanacağın Cənub Qaz Dəhlizinə ötürürülməsi istiqamətində aktiv danışıqlar aparmaqdadır. Bu isə Cənub Qaz Dəhlizinin daha da genişlənməsinin təmin edilməsi deməkdir. Bu nəhəng coğrafi enerji arteriyasının qurulması üçünsə Avropa böyükhəcmli sərmayə yatırmalı və TransXəzərin maliyyələşməsini təmin etməlidir. Hazırda Aİ bu məsələni müzakirə edir və infrastrukturun yaradılması üçün sərmayə proqramı təmin olunsa, Azərbaycan və Türkiyə Avropaya qaz nəqlində tranzit ölkə kimi çıxış edəcək.

Beləliklə, enerjinin şaxələndirilməsi ilə bağlı mükəmməl siyasət yürüdən Azərbaycanın çoxşəbəkəli ixrac blokları qurması bir çox region ölkələrinin, o cümlədən Avropa İttifaqının kritik dövrdə enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı və dayanıqlı rol oynayır, risklərdən qoruyur.




**Belə bir şəraitdə Azərbaycanın Avropa üçün etibarlı enerji tərəfdaşı kimi rolu və qaz ixracının əhəmiyyəti bir daha aktuallaşır, Aİ-nin ölkəmizin qazına olan tələbatı daha da artır**

*E.CƏFƏRLİ*

# Regional inkişaf strategiyası: Real nəticələr, sabahın hədəfləri...

Regionların sosial-iqtisadi inkişafı strategiyası ölkəmizin tərəqqisini təmin edən mühüm hədəflərdfən biridir. Bu strateji baxış təkcə bölgələrdə zəruri infrastrukturları və biznes üçün təminatları yaratmaqla məhdudlaşımır, regionların iqtisadi potensialının üzə çıxarılması və əlavə dəyər zəncirinə inteqrasiyasını təmin etməyə yönəldilib. Bunun nəticəsidir ki, regional inkişaf proqramları ölkəmizdə yeni istehsal və emal komplekslərinin, güclü sənaye müəssisələrinin istifadəyə verilməsinə, yeni iş yerlərinin yaradılmasına, sahibkarlığın müasir inkişaf fəaliyyətlərinə yönəldilməsinə səbəb olmaqdadır. Xüsusilə də, özəl investisiyaların təşviqi və yerli istehsalın genişləndirilməsidir. Çünki hər hansı ərazidə yeni müəssisənin açılması yalnız bir iqtisadi obyektin yaranması deyil. Bu, yeni iş yerləri, ailələr üçün gəlir mənbəyi, yerli bazar üçün əlavə məhsul, ətraf xidmət sahələri üçün isə yeni sifarişlər deməkdir.

Bir sözlə, bu strateji kurs kənd və şəhər həyatının keyfiyyətcə dəyişməsini, sosial-iqtisadi inkişafın dayanıqlılığını təmin etməkdədir.

Azərbaycan Respublikası Media və Yayım Şurası

**Məqalə "Azərbaycan Respublikası Media və Yayım Şurası"nın maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır**

## Azad edilmiş ərazilər regionların inkişafında yeni mərhələ açır

Müasir mərhələdə regionların davamlı inkişafı üçün yalnız ayrı-ayrı layihələrlə kifayətlənməmək, qeyri-neft ixracını artırmaq, habelə infrastruktur xidmətlərinin iqtisadi səmərəliliyini və inzibati-ərazi quruluşunun təkmilləşdirilməsini kompleks şəkildə qiymətləndirmək kimi məsələlər gündəmdədir. Eləcə də, işğaldan azad edilmiş ərazilərdə quruculuq, yeni yaşayış məntəqələrinin salınması, nəqliyyat-kommunikasiya əlaqələrinin genişləndirilməsi və əhalinin məşğulluğunun artırılması ölkənin gündəliyində mühüm yer tutur. Bu istiqamətdə görülən işlərin əsas mahiyyəti regionların yalnız fiziki baxımdan yenilənməsi deyil, həm də iqtisadi və sosial cəhətdən dayanıqlı inkişaf modelinə keçidir. Azad ərazilərin güclü iqtisadi resursları və potensialı var, yaxın 4-5 ildə bu bölgənin iqtisadi artıma böyük töhfələri olacaq, eləcə də Azərbaycanda qeyri-neft iqtisadiyyatının potensiallarının gücləndirməsində möhkəm sütunlardan birinə çevriləcək.

## İnkişafın davamlılığı necə təmin olunmalıdır?

Regionların sosial-iqtisadi inkişafında əldə edilən nəticələrlə yanaşı, qarşıda duran vəzifələr də kifayət qədər genişdir. Əsas məsələlərdən biri bölgələrə investisiya axınının davamlılığını təmin etmək, yerli sahibkarların fəaliyyətini stimullaşdırmaq və iqtisadi imkanları rayonlar arasında daha balanslı şəkildə bölüşdürməkdir. Bununla yanaşı, su ehtiyatlarından səmərəli istifadə, ekoloji tarazlığın qorunması, iqlim dəyişikliklərinin təsirlərinə uyğunlaşma və kənd təsərrüfatında resurslara qənaət edən texnologiyaların tətbiqi də xüsusi diqqət tələb edir. Digər tərəfdən, regionların inkişafında yerli icmaların təşəbbüslərinə daha geniş imkan verilməsi vacibdir. Çünki hər bir bölgənin ehtiyaclarını və üstünlüklərini ən yaxşı həmin ərazidə yaşayan insanlar bilir. Yerli potensialın düzgün qiymətləndirilməsi, vətəndaşların qərarvermə prosesində iştirakının genişləndirilməsi layihələrin səmərəliliyini artıra bilər.

Ən vacib məqamlardan biri isə regionların inkişafının yalnız dövlət investisiyaları hesabına deyil, dövlət-özəl sektor əməkdaşlığı əsasında da gücləndirilməsidir. Dövlət tərəfindən yaradılan əlverişli biznes mühiti özəl təşəbbüslərlə tamamlandıqda daha uzunmüddətli iqtisadi nəticələr əldə etmək mümkündür.



## Ölkənin gələcəyinə yatırılan sərmayə

Hazırda Azərbaycanın regional inkişaf siyasəti qarşıya mühüm vəzifə qoyur: ölkənin hər bir bölgəsində iqtisadi fəallığı artırmaq, sosial rifahı yüksəltmək və insanlara yaşadıqları ərazidə öz potensiallarını reallaşdırmaq imkanı yaratmaq. Bu məqsədlərə çatmaq üçün həyata keçirilən infrastruktur layihələri, sənaye və aqrar sahədə yeniliklər, turizm imkanlarının genişləndirilməsi, "Böyük Qayıdış" çərçivəsində aparılan quruculuq işləri vahid inkişaf strategiyasının tərkib hissələridir.

Əlbəttə, regional inkişaf bir günün, bir ilin işi deyil. Bu, ardıcıllıq, düzgün planlaşdırma, investisiya və insan kapitalına davamlı diqqət tələb edən uzunmüddətli prosesdir. Əsas məsələ yaradılan imkanların davamlı iqtisadi nəticələrə çevrilməsi, hər bir bölgənin öz potensialına uyğun inkişaf etməsi və bu tərəqqinin insanların gündəlik həyatında hiss olunmasıdır.

Unutmaq olmaz ki, inkişaf etmiş region güclü dövlətin, rifah içində yaşayan insan isə dayanıqlı cəmiyyətin əsas dayağıdır. Azərbaycanın gələcəyi də məhz bu dayaqların möhkəmləndirilməsindən, ölkənin hər bir guşəsində tərəqqinin təmin edilməsindən keçir. Çünki regionların inkişafı sadəcə ərazi məsələsi deyil, bütövlükdə Azərbaycanın gələcəyinə, iqtisadi gücünə və insan kapitalına yatırılan strateji sərmayədir.

***Yeganə BAYRAMOVA***

# Dohada danışıqlar masası qurulacaqmı?

Uzanan münaqişəyə çevrilən və bütün dünyanın təsirləndiyi İranla Amerika Birləşmiş Ştatları (ABŞ) - İsrail cütlüyü arasındakı müharibənin yeni mərhələsi müşahidə edilməkdədir. Bəzi ekspertlərin "nə savaş, nə sülh şəraiti" kimi səciyyələndirdikləri indiki mərhələ əslində fırtınaqabağı sakitliyə bənzəyir. İrandan verilən mesajlar, ABŞ-da və İsraildə müharibə hazırlıqları, yaxın bazalara arası kəsilmədən hərbi texnika daşınması, kəşfiyyat uçuşlarının intensivləşməsi regionun daha dəhşətli və dağıdıcı müharibə riskləri ilə üz-üzə qaldığı barədə ehtimalları gücləndirir.

Ancaq dünya praktikasından da bəlli olduğu kimi, bütün müharibələr nə qədər uzansa da, onların sonu danışıqlar masasından keçir. Necə deyərlər, ən pis sülh ən uğurlu müharibədən daha yaxşıdır. Bəs Yaxın Şərqdə İran ətrafında artan gərginlikdə hansısa bir razılaşmaya ümid varmı?

## Yaxın Şərq yeni müharibəyə tab gətirməyəcək - Qətərdən növbəti vasitəçilik təklifi

Çoxlarının yeni müharibəni yeganə perspektiv kimi dəyərləndirdiyi bir vaxtda Qətərin növbəti dəfə vasitəçilik təklifi ilə tərəflərə üz tutması diplomatiyanın qapısının hər zaman açıq olduğu qənaətini möhkəmləndirir. "Qətər hökuməti Vaşinqton və Tehran arasında danışıqları bərpa etmək üçün səylər göstərir". Bunu Qətərin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdürrəhman Əl-Tani "Əl-Cəzirə"yə deyib. O, "Yaxın Şərqdəki vəziyyətin ABŞ və İran arasında yeni gərginliyə tab gətirə bilməyəcəyini" vurğulayıb. Vaşinqtonla ikitərəfli münasibətlərə gəldikdə isə, Baş nazir Dohanın "müdafiə əməkdaşlığının gücləndirilməsinə" sadiq olduğunu qeyd edib.

Qətər ABŞ və İran arasında dolayı danışıqlarda əsas vasitəçidir. 23 noyabrda Şeyx Məhəmməd bin Əbdürrəhman Əl-Tani Vaşinqtonda ABŞ Dövlət katibi Marko Rubio ilə görüşüb. ABŞ Dövlət Departamentinin məlumatına görə, tərəflər Yaxın Şərqdə təhdidlərin qarşısını almaq və sabitliyin təmin edilməsi məsələlərini müzakirə ediblər.

Noyabrın 22-də ABŞ Prezidenti Donald Tramp "Fox News"a bildirib ki, Vaşinqton və Tehran münaqişəyə son qoymaq üçün dolayı məsləhətləşmələri davam etdirir. Amerika lideri həmçinin bildirib ki, razılaşma əldə olunmazsa, Yeni ildən sonra İrana hücumları bərpa etməyə meyllidir.

Məlumdur ki, münaqişə başlayandan bəri xüsusilə də Pakistanın səyləri ilə tərərfləri danışıqlar masasına əyləşdirməyə çoxsaylı cəhdlər göstərilib. Lakin müxtəlif məkanlarda baş tutan müzakirələr nəticəsiz qalıb.

Bütün bunların ardından Qətərin kritik bir məqamda növbəti dəfə diplomatiyanı işə salmağa cəhd göstərməsi təsadüfi deyil. Uzanan müharibə yalnız üç ölkənin müharibəsi deyil. İran münaqişə başlayandan sonra ABŞ və İsraillə adekvat olmayan hərbi gücünü müharibənin arealını öz coğrafiyasından kənara çıxarmaqla, o cümlədən Hörmüz boğazını bağlamaqla tarazlaşdırmaq taktikasını seçdi. Beləliklə də, regionun ayrı-ayrı dövlətləri də faktiki olaraq müharibəyə cəlb edilmiş oldular. Qeyd edək ki, bu il fevralın 28-dən körfəz ərəb dövlətlərinin ərazisinə 7 mindən artıq raket və pilotsuz uçuş aparatları ilə hücum olub. Bu hadisələr nəticəsində çoxlu sayda mülki obyektə ziyan dəyib, dinc sakinlər ölüb. Son günlərdə isə İranın ABŞ-ın Bəhreyndəki bazalarına hücumlarının sayı artıb, həmçinin Hörmüz boğazında tankerlər ardarda atəşə tutulur, partladılır. Region dövlətləri üçün fəsadlar çox ağırdır. Bəzi araşdırmalara əsasən, məlum hərbi əməliyyatlar Körfəz Ərəb Ölkələri İqtisadi Şurası üzvlərinə 200 milyard dollardan artıq zərər vurub. Bundan başqa, Hörmüz boğazı ətrafındakı mövcud gərginlik, blokada, enerji daşıyıcılarının nəqlində yaranmış problemlər region ölkələrinin iqtisadi inkişafına böyük maneə sayılır.

Son qiymətləndirməyə əsasən, bu vəziyyət Şuranın altı ölkəsinə 2026-cı ildən 2030-cu ilin dekabrınadək təxminən 790 mlrd. dollar iqtisadi itkilər yaşada bilər. Habelə, ABŞ-İran qarşıdurmasının indiki səviyyədə davam etməsi BƏƏ-də sahil sularının çirklənməsi, bir sıra şimal əmirliklərində çimərliklərin bağlanmasına səbəb olur. Bu isə həm də regionda turizm sektoruna ziyan vurur.

Qətərin Baş naziri "Yaxın Şərq növbəti müharibə yükünə tab gətirə bilməyəcək" fikrini ifadə edərkən məhz bu kədərli reallığa istinad edir. Ən kritik məqamlardan biri də İranın zərbələrindən sonra region dövlətlərinin təhlükəsizliyinin ciddi təhdid altına düşməsidir. Sübut olundu ki, ABŞ-ın təhlükəsizlik çətiri tam etibarlı deyil. Hələlik regionda Vaşinqtonu əvəzləyəcək başqa bir "qoruyucu" da yoxdur. Buna görə də region dövlətləri Ağ Evdən əlavə dəstək istəməklə yanaşı, regional hərbi-müdafiə ittifaqları yaratmağı da məqbul hesab edirlər. Məkkə Sazişinin imzalanması ilə bu tendensiyanın əsası qoyulub və onun genişlənəcəyi ehtimalı da böyükdür.



Dohanın vasitəçilik təklifi ilə çıxış etməsi diplomatiyaya müəyyən ümidlər yaratsa da, müharibə risklərini artıran amillər də var. Bu amillər ilk növbədə tərəflərin maksimalist mövqedən çıxış etmələri ilə bağlıdır. Tehran danışıqlar üçün 7 şərt prinsipindən çıxış edir. İran parlamentinin sədri Məhəmməd Baqir Qalibaf bildirib ki, İranın yeddi şərti yerinə yetirilməyənə qədər heç bir addım atılmayacaq və danışıqlar aparılmayacaq.

Qalibaf onu da vurğulayıb ki, qarşı tərəf İrana qarşı yeni təcavüzkar addımlar atarsa, Tehran "döyüş əməliyyatlarının coğrafiyasını genişləndirməyə" hazırdır.

Tehranın irəli sürdüyü tələblər arasında regionda, o cümlədən Livanda hərbi əməliyyatların tamamilə dayandırılması, sanksiyaların ləğvi, ABŞ-ın dəniz blokadasının aradan qaldırılması, dondurulmuş İran aktivlərinin sərbəst buraxılması və ölkəyə dəymiş ziyana görə kompensasiya ödənilməsi kimi ciddi şərtlər yer alır.

Bu şərtlər ABŞ üçün qəbuledilməz sayılır. Vaşinqton yeni ilədək müharibənin təxirə salına biləcəyinin anonsunu edib. İranın iqtisadi blokadası isə davam etdirilir və daha da sərtləşdirilir. Elə bu günlərdə ABŞ Maliyyə Nazirliyi İranla əlaqəli onlarla şəxs və təşkilata sanksiya tətbiq edib. Bildirilib ki, İslam Respublikasının başqa ölkələrdə yerləşən kölgə bank şəbəkələrini sarsıtmaq üçün məhdudiyyətlər Türkiyə, BƏƏ və Honkonqda yerləşən şirkətlərə də tətbiq olunub. "İqtisadi təcrid" adlanan əməliyyat çərçivəsində Tehranın kölgə bank şəbəkəsi ilə əlaqəli İranın 8 vətəndaşına, 22 şirkət və təşkilata qarşı sanksiyalar qoyulub. O da qeyd edilib ki, bu şəbəkə ilə əlaqəli təxminən 14,7 milyard dollar məbləğində maliyyə əməliyyatları aparılıb. ABŞ-ın maliyyə naziri Skott Bessent CNBC telekanalına müsahibəsində bildirib ki, Vaşinqton münaqişənin dayandırılması ilə bağlı ABŞ-ı qane edən razılaşmalar əldə olunana qədər İrana qarşı iqtisadi təzyiqləri davam etdirəcək.

Beləliklə, sadalanan faktlar tərəflərin bir-birindən hansı məsafədə dayandığını aydın şəkildə ortaya qoyur. Bu reallıq fonunda Qətərin vasitəçiliyi nə dərəcədə nəticəyönümlü olacaq?

***Mübariz FEYİZLİ***

## Dohaya bəslənən ümidlər

İndiki məqamda Qətərin vasitəçilik təklifi ilə çıxış etməsi ən optimal variantlardan biri kimi görünür. Doha bir növ yeni müharibə arzulamayan bütün region dövlətlərinin istəyini ifadə edir. Bəs ona güvən hara qədərdir?

Danışıqların Qətər mərhələsinin hansısa bir müsbət nəticə verəcəyinə inam ilk növbədə tərəflərin Dohanın vasitəçiliyini qəbul etmələridir. Qətər Vaşinqtonun regionda ən yaxın müttəfiqlərindən biridir. Bu ölkə ABŞ-ın Yaxın Şərqdəki ən böyük hərbi bazasına - Əl-Udeydə ev sahibliyi edir. Eyni zamanda, Vaşinqtonla Doha arasında siyasi dialoq da yüksək səviyyədədir.

Paralel şəkildə, Qətər regionda İranla normal münasibətləri olan azsaylı ölkələrdən biridir. Münaqişə başlayandan bəri yüksəksəviyyəli İran rəsmiləri dəfələrlə bu ölkəyə gələrək müzakirələr aparıblar.

Dohaya etimad yaradan həm də o amildir ki, Qətər bundan əvvəl də münaqişədə vasitəçi qismində iştirak edib. Bu istiqamətdə ilk təşəbbüs 2022-ci ildə Dohanın ABŞ və İran arasında nüvə proqramı üzrə dolayı məsləhətləşmələrə ev sahibliyi etməsi ilə gerçəkləşib. Bir il sonra - sentyabrda Qətərin vasitəçiliyi ilə tərəflər arasında məhbus mübadiləsi həyata keçirilib. ABŞ-ın 5 vətəndaşı azadlığa buraxılıb, eyni zamanda, Cənubi Koreyada dondurulmuş təxminən 6 milyard dollar məbləğində İran neft gəlirlərinin humanitar məqsədlər üçün Qətər banklarına köçürülməsi təmin olunub.

Bu ilin iyun-oktyabr aylarında rəsmi Dohanın vasitəçiliyi ilə tərəflər arasında sülh müqaviləsi layihəsi üzərində iş aparılıb. İyun ayının sonunda isə Dohada saxlanılan İran aktivlərinin bir hissəsinin sərbəstləşdirilməsi ilə bağlı razılaşmalar gündəmə gəlib. Oktyabrın sonunda Qətər nümayəndə heyəti danışıqları davam etdirmək üçün Tehrana səfər edib və tərəflərə sülh planı layihəsi təqdim olunub.

# ABŞ münaqişənin nizamlanması üçün konsepsiya hazırlayıb

## Lakin konsepsiyanın Rusiya-Ukrayna müharibəsini həll edəcəyi məlum deyil

Son zamanlar ABŞ Rusiya-Ukrayna müharibəsinin həlli üçün təşəbbüslərini daha da artırıb. Prezident Donald Trampın xüsusi elçisi və kürəkəni Cared Kuşner bildirib ki, ABŞ Rusiya-Ukrayna münaqişəsinin nizamlanması ilə bağlı konsepsiya hazırlayıb. Onun sözlərinə görə, son iki ay ərzində avropalılarla sıx əməkdaşlıq aparılıb, sülhə nail olmaq üçün ümumi mövqenin formalaşdırılması və uyğun çərçivənin hazırlanması müzakirə edilib.

## Kuşner: Qarşıdakı bir neçə həftə ərzində nəticələri biləcəyik

Kuşner deyib ki, Rusiya tərəfi ilə də müxtəlif ideyalar dəfələrlə qapalı müzakirə olunub: "Düşünürəm ki, artıq nizamlanma ilə bağlı konsepsiyamız və yanaşmamız var. Bunun uğur gətirib-gətirməyəcəyini bilmirəm, lakin kifayət qədər məntiqli hesab oluna bilər. Görünür, hazırda hər iki tərəf bunu sınamağa hazırdır. Ümid edirəm ki, qarşıdakı bir neçə həftə ərzində məqsədə nə dərəcədə yaxın olduğumuzu görə biləcəyik".

Xatırladaq ki, ABŞ-ın vasitəçiliyi ilə Rusiya-Ukrayna müharibəsinin həlli ilə bağlı üçtərəfli danışıqlar 10-11 noyabr tarixlərində BƏƏ-nin paytaxtı Əbu-Dabi şəhərində baş tutmuşdu. Bu danışıqlardan sonra Kuşner bəyan etmişdi ki, Ukraynadakı münaqişənin həlli ilə bağlı razılaşma ABŞ-ın Avropadakı müttəfiqlərinin danışıqlarda iştirakı olmadan əldə edilə bilməz. O qeyd edib ki, ABŞ son bir neçə ay ərzində Avropa ölkələri ilə bu məsələ üzrə sıx əməkdaşlıq edir: "Son bir neçə ay ərzində avropalılarla çox sıx əməkdaşlıq etmişik və hesab edirəm ki, bu, olduqca vacibdir. Avropalılar danışıqlar masasında olmadan bu razılaşmanı əldə edə bilmərik".

Kuşner həmçinin, deyib ki, ABŞ Avropa ölkələri ilə qitədə təhlükəsizlik arxitekturasını müzakirə etməyə başlayıb. Vaşinqton Avropa ölkələrinin danışıqlarda iştirak etməyə və Ukraynadakı münaqişənin başa çatmasına kömək göstərməyə hazır olduğunu görür. "Ukrayna üzrə danışıqlar çərçivəsində yaxın həftələrdə Avropada gələcək təhlükəsizlik arxitekturasına dair müzakirələr aparmağı planlaşdırırıq" - deyən xüsusi elçi əlavə edib ki, Stiv Vitkoffla birlikdə Ukrayna, Avropa tərəfdaşları və Rusiya ilə ikitərəfli görüşlər və çoxtərəfli müzakirələr keçirməyi nəzərdə tuturlar. Məqsəd gələcək təhlükəsizlik arxitekturası ilə bağlı ortaq mövqenin formalaşdırılmasıdır.

Onun sözlərinə görə, ABŞ Prezidenti Donald Tramp Ukraynada yeni münaqişənin baş vermə ehtimalının minimuma endiyinə əmin olacağı təqdirdə Kiyevə güclü təhlükəsizlik zəmanətləri verməyə razılaşa bilər. "Tramp Ukraynaya NATO Nizamnaməsinin 5-ci maddəsində nəzərdə tutulan təminatlara bənzər təhlükəsizlik zəmanətləri vermək imkanını nəzərdən keçirir" -deyən Kuşner vurğulayıb ki, belə bir öhdəlik üçün ABŞ ciddi məsuliyyət daşıyır və onun təsdiqi üçün təkcə Prezidentin deyil, Konqresin də razılığı, eləcə də Konstitusiyaya uyğun prosedurlar tələb olunur. O, Rusiyanın bu cür zəmanətləri müzakirə etməyə hazır olmasını sülh istiqamətində mühüm addım kimi qiymətləndirib. Kuşner bildirib ki, Vaşinqton Ukraynanın təhlükəsizliyinin təmin olunduğu, Avropanın daha güclü olduğu, Rusiyanın isə NATO-nun qarşıdurma axtarmadığına əmin olduğu gələcək naminə çalışır.



## Zelenski: Vaşinqton sülh sazişinin mümkün qədər tez imzalanmasını istəyir

Ukrayna Prezidenti Volodimir Zelenski isə Vaşinqtonun sülh sazişinin mümkün qədər tez imzalanmasının istədiyini açıqlayıb: "C.Kuşner və S.Uitkoff sazişin ilin sonunadək imzalanmasında israr edirlər. Prosesi çox sürətləndirmək istəyi var və həm biz, həm də ruslar bunu başa düşürük. Nəyin bahasına başa gələcəyini də anlayırıq. Biz də sülhü çox istəyirik, lakin bunun yalnız Ukrayna hesabına əldə olunmasını istəmirik". Ukrayna liderinin sözlərinə görə, ölkəsi mühüm güzəştlərə getmək məcburiyyətində qala bilər. Bununla yanaşı, Rusiya Prezidenti Vladimir Putin müharibəni dayandırmağa hazır olduğuna dair heç bir əlamət göstərmir.

V.Zelenski bildirib ki, Kiyev üçün məqbul olan sülh sazişi imzalanmasa, Ukrayna ABŞ-dan mühüm hərbi yardım paketi tələb edəcək. Kiyev, həmçinin Rusiyaya qarşı daha sərt sanksiyaların tətbiqini istəyəcək. "Ukraynaya dəstəyin və sanksiyaların səviyyəsi ruslar üçün aydın siqnal olacaq dərəcədə olmalıdır. Danışıqlar masasına əyləşməyin və müharibəni dayandırmağın vaxtıdır", - deyə dövlət başçısı vurğulayıb.

Yeri gəlmişkən, Ukrayna Prezidenti Ofisinin rəhbəri Kirill Budanov jurnalistlərə açıqlamasında Ukrayna, Rusiya, ABŞ və Avropa tərəfdaşlarının danışıqlar qruplarının iştirakı ilə işçi görüşün Milad bayramına qədər baş tuta biləcəyini deyib. Rusiyanın mövqeyi nəzərə alınmaqla avropalı nümayəndələrin danışıqlar masası arxasında fiziki iştirak ehtimalını şərh edən Budanov, belə bir formatın real olduğunu qeyd edib.

Öz növbəsində, Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov bildirib ki, Rusiya, ABŞ və Ukrayna danışıqları dayandırılmayıb və ləngiməyib, lakin növbəti raundun tarixi hələ ki müəyyən edilməyib: "Növbəti raundun nə vaxt keçiriləcəyi barədə məlumat yoxdur. Lakin onun baş tutacağına şübhəm yoxdur". Onun sözlərinə görə, Moskva danışıqları noyabrın 10-11-də Əbu-Dabidə keçirilən formatdakı kimi davam etdirməyə hazırdır. S.Ryabkov əlavə edib ki, BƏƏ-dəki danışıqlar zamanı Rusiya ABŞ və Ukraynaya Moskvanın münaqişənin gələcək həllinə dair çərçivəni necə gördüyünün təfərrüatlı təsvirini təqdim edib.

S.Ryabkov, həmçinin qeyd edib ki, Avropa nümayəndələri ilə təmaslar barədə ona heç nə məlum deyil. Bununla yanaşı, o vurğulayıb ki, əgər onlar şərtlər irəli sürürlərsə, o zaman "dialoq üçün öz şanslarını sıfırlayırlar".

## Aİ danışıqlara güclü komanda göndərəcək

Bu arada Avropa İttifaqı Ukraynada müharibənin dayandırılması üzrə danışıqların növbəti raunduna güclü Avropa komandası göndərmək niyyətindədir. Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen deyib ki, son həftələrdə biz müharibənin dayandırılması səylərində yeni dinamika müşahidə edirik: "Danışıqların növbəti raundunda güclü Avropa komandası iştirak edəcək. Bu vacibdir, çünki Ukraynanın təhlükəsizliyi birbaşa bizim təhlükəsizliyimizə təsir edir". Onun sözlərinə görə, Aİ danışıqların gedişatını təkcə Rusiyanın bəyanatlarına deyil, həm də atdığı addımlarına əsaslanaraq qiymətləndirəcək. "Rusiya enerji infrastrukturuna qarşı qış atəşkəsinə, həmçinin Qara dəniz vasitəsilə ərzaq ixracının təhlükəsiz keçidini təmin etmək üçün atəşin dayandırılmasına razılaşmalıdır. Bunlar mühüm addımlar olardı, çünki Rusiyanın danışıqlara ciddi yanaşdığını göstərərdi", - deyə Avropa Komissiyasının rəhbəri vurğulayıb. O qeyd edib ki, Aİ-nin strategiyası Ukraynaya maksimum dəstəyi, Rusiyaya təzyiqin gücləndirilməsini və Avropanın uzunmüddətli sülh üzrə danışıqlarda tamhüquqlu iştirakını nəzərdə tutur.

Fon der Lyayen xatırladıb ki, bazar ertəsi Aİ-nin Rusiyaya qarşı 22-ci sanksiyalar paketi təqdim edilib. Onun sözlərinə görə, genişmiqyaslı müharibə başlayandan bəri Aİ Ukraynaya 235 milyard avrodan çox yardım göstərib. O həmçinin bildirib ki, Avropa Komissiyasının təklif etdiyi maliyyə dəstəyi mexanizmi 2027-ci ildə Ukraynaya 45 milyard avronun ayrılmasını nəzərdə tutur. Belə ki, həmin vəsait büdcə ehtiyacları üçün 20 milyard avronu və hərbi dəstək üçün 25 milyard avronu əhatə edir. Xanım Lyayen deyib ki, Ukrayna bu vəsaiti yalnız Rusiya müharibənin vurduğu ziyanı ödədikdən sonra geri qaytarmalı olacaq.

***N.BAYRAMLI***

# Tbilisinin Avropa dilemması: Gürcüstan Brüsseldən uzaqlaşır, yoxsa siyasi kursunu dəyişir?

## Avropa Komissiyasının 4 noyabrda açıqlanmış 2026-cı il Genişlənmə Paketi

### Gürcüstanın üzvlük prosesinin faktiki dayandığını bir daha təsdiqləyib

Gürcüstanın Avropa İttifaqına inteqrasiya istiqamətindəki siyasi və strateji seçimi Cənubi Qafqazın gələcəyinə təsir göstərə biləcək mühüm geosiyasi məsələlərdən birinə çevrilib. Bir neçə il əvvəl Avropa İttifaqına üzvlük perspektivi Gürcüstanın dövlət siyasətinin əsas istiqamətlərindən biri, cəmiyyətin böyük hissəsini birləşdirən ümummilli məqsəd və ölkənin təhlükəsizlik strategiyasının mühüm dayağı kimi qəbul edilirdi. 2023-cü ilin dekabrında Gürcüstana Aİ-yə namizəd ölkə statusunun verilməsi bu prosesin ən mühüm mərhələsi oldu. Həmin vaxt Tbilisinin Ukrayna və Moldova ilə birlikdə Avropaya inteqrasiyasının yeni mərhələsinə daxil olması ölkənin siyasi gələcəyi baxımından ciddi imkanlar yaratmışdı. Lakin 2024-cü ildən etibarən hakimiyyətlə Avropa institutları arasında yaranan ziddiyyətlər, mübahisəli qanunvericilik təşəbbüsləri, siyasi etirazlara münasibət və xarici siyasət ritorikasındakı dəyişikliklər Gürcüstanın Avropa perspektivini ciddi sual altına qoydu. 2026-cı ilin noyabr ayının 4-də Avropa Komissiyasının açıqladığı yeni Genişlənmə Paketi isə bu böhranın aradan qalxmadığını, əksinə, daha da dərinləşdiyini göstərdi. Komissiyanın qiymətləndirməsinə görə, Gürcüstanın Avropa İttifaqına üzvlük prosesi faktiki olaraq dayanmış vəziyyətdədir və ölkə namizəd statusunun verdiyi imkanlardan real şəkildə yararlana bilmir. Beləliklə, Tbilisinin qarşısında duran əsas məsələ artıq üzvlük danışıqlarının hansı tarixdə başlanacağı deyil, ölkənin Avropa inteqrasiyasına imkan verən siyasi və institusional şərtləri yenidən formalaşdırıb-formalaşdırmayacağıdır.

Gürcüstanın Avropaya yaxınlaşması son illər yaranmış siyasi təşəbbüs deyil. Ölkə müstəqilliyini bərpa edəndən sonra Qərb institutları ilə əməkdaşlığı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirib. 2014-cü ilin iyun ayının 27-də Gürcüstan Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzalayıb, sənəd 1 iyul 2016-cı ildə tam qüvvəyə minib. Sazişin mühüm tərkib hissəsi olan Dərin və Hərtərəfli Azad Ticarət Məkanı (DCFTA) Gürcüstan iqtisadiyyatının Avropa bazarına inteqrasiyası, məhsul və xidmət standartlarının uyğunlaşdırılması, rəqabət mühitinin yaxşılaşdırılması və iqtisadi qanunvericiliyin Avropa normalarına yaxınlaşdırılması üçün hüquqi baza yaradıb. 2017-ci ilin martından Gürcüstan vətəndaşları biometrik pasportlarla Şengen zonasına qısamüddətli səfərlər üçün vizasız rejimdən istifadə etməyə başlayıblar. Bu addımlar Gürcüstanın Avropa ilə münasibətlərini yalnız diplomatik bəyanatlar səviyyəsində saxlamayıb, vətəndaşların gündəlik həyatına, biznes mühitinə və ölkənin xarici iqtisadi əlaqələrinə də təsir göstərib.

2022-ci ilin mart ayının 3-də Gürcüstan Avropa İttifaqına üzvlük üçün rəsmi müraciət edib. Həmin ilin iyununda Avropa Şurası Gürcüstana Avropa perspektivi təqdim edib, lakin namizəd statusunun verilməsini müəyyən islahatların həyata keçirilməsi şərtilə əlaqələndirib. 2023-cü ilin dekabr ayının 14-də isə Gürcüstana namizəd ölkə statusu verilib. Bu qərar ölkənin Avropa inteqrasiyasında mühüm siyasi nailiyyət sayılsa da, namizəd statusu avtomatik olaraq üzvlük danışıqlarının başlanması demək deyildi. Avropa Komissiyası demokratik institutların gücləndirilməsi, hüququn aliliyinin təmin olunması, məhkəmə sisteminin müstəqilliyi, korrupsiyaya qarşı mübarizə, insan hüquqlarının qorunması, siyasi plüralizm və media azadlığı sahələrində konkret irəliləyiş tələb edirdi. Başqa sözlə, Gürcüstanın qarşısında yalnız Avropa qanunvericiliyini qəbul etmək və texniki uyğunlaşma aparmaq vəzifəsi yox, həm də dövlət idarəçiliyinin demokratik keyfiyyətini yüksəltmək öhdəliyi dayanırdı.

Münasibətlərin kəskinləşməsində əsas dönüş nöqtələrindən biri 2024-cü ildə qəbul edilmiş "Xarici təsirin şəffaflığı haqqında" qanun oldu. Qanun xaricdən maliyyələşən müəyyən qeyri-hökumət təşkilatlarının və media qurumlarının xüsusi qeydiyyat prosedurundan keçməsini nəzərdə tuturdu. Gürcüstan hökuməti təşəbbüsü maliyyə şəffaflığının təmin edilməsi, xarici maliyyə mənbələrinin açıqlanması və ölkənin suverenliyinin qorunması ilə əsaslandırırdı. Tənqidçilər isə qanunun qeyri-hökumət sektoruna və müstəqil mediaya təzyiq vasitəsinə çevrilə biləcəyini, vətəndaş cəmiyyətinin fəaliyyətini məhdudlaşdıracağını bildirirdilər. Avropa İttifaqı və Avropa Şurasının Venesiya Komissiyası qanunun demokratik standartlara uyğunluğuyla bağlı ciddi narahatlıq ifadə etdi. Mübahisənin mahiyyəti xarici maliyyənin açıqlanması məsələsiylə məhdudlaşmırdı, əsas problem qanunun tətbiq mexanizmlərinin, siyasi mühitin və vətəndaş cəmiyyətinə münasibətin demokratik institutların müstəqilliyinə necə təsir göstərəcəyi idi.

Avropa İttifaqının narahatlığı sonrakı aylarda daha da artdı. 2024-cü ilin iyun ayının 27-də Avropa Şurası Gürcüstan hökumətinin atdığı addımların ölkənin Avropa İttifaqına üzvlük prosesinin faktiki dayandırılmasına gətirib çıxardığını bildirdi. Oktyabrın 17-də Avropa Şurası bu mövqeyini yenidən təsdiqlədi və Gürcüstan hakimiyyətini demokratik, hərtərəfli və davamlı islahatlara qayıtmağa çağırdı. Bununla belə ən ciddi siyasi dönüş noyabrın 28-də baş Verdi: baş nazir İrakli Kobaxidze hökumətin 2028-ci ilin sonuna qədər Avropa İttifaqına üzvlük danışıqlarının açılması məsələsini gündəmə gətirməyəcəyini və bu müddət ərzində Avropa İttifaqından büdcə qrantlarının qəbul edilməsini dayandıracağını bəyan etdi. Bu bəyanat cəmiyyətdə geniş etirazlara səbəb oldu. Tbilisi və digər şəhərlərdə keçirilən nümayişlərdə minlərlə insan ölkənin Avropa istiqamətindən uzaqlaşmasına etiraz etdi. Beləliklə, Avropaya inteqrasiya hökumətlə Brüssel arasında diplomatik fikir ayrılığı olmaqdan çıxaraq



Gürcüstanın daxili siyasi mübarizəsinin əsas mövzularından birinə çevrildi.

2025-ci ildə siyasi qarşıdurma daha da dərinləşdi. Qanunvericilik sahəsində xarici maliyyələşmə və vətəndaş cəmiyyətinin fəaliyyəti ilə bağlı yeni məhdudiyyətlər qoyuldu, etiraz aksiyalarına və müxalifət nümayəndələrinə münasibət beynəlxalq təşkilatların diqqət mərkəzində qaldı. 2026-cı ilin Avropa Komissiyası hesabatında da məhz bu proseslərin Gürcüstanın Avropaya inteqrasiyasına mane olan əsas amillər kimi qiymətləndirilir. Komissiya bildirir ki, hakim partiyanın siyasəti demokratik prinsiplərə, hüququn aliliyinə və fundamental hüquqlara mənfi təsir göstərib, vətəndaş cəmiyyətinin fəaliyyət sahəsi getdikcə daralıb. Sənəddə dövlət institutlarının siyasi təsirdən qorunması və hakimiyyətin hesabatlılığı ilə bağlı problemlər də vurğulanır. Bu qiymətləndirmə Brüsselin Gürcüstanla bağlı mövqeyinin müvəqqəti narazılıqdan ibarət olmadığını, üzvlük meyarlarının yerinə yetirilməsiylə bağlı sistemli problem gördüyünü göstərir.

2026-cı ilin noyabr ayının 4-də açıqlanan Avropa Komissiyasının Genişlənmə Paketi Gürcüstanın vəziyyətinə dair indiyədək verilmiş ən mühüm rəsmi qiymətləndirmələrdən biridir. Komissiya ölkənin üzvlük prosesinin de-fakto dayandığını və Gürcüstanın "yalnız formal olaraq namizəd" vəziyyətində qaldığını bildirir. Sənəddə Gürcüstanın namizəd statusunun verilməsiylə bağlı müəyyən edilmiş doqquz əsas addım üzrə tələbləri yerinə yetirmədiyi qeyd olunur. Komissiyanın mövqeyinə görə, hakimiyyət demokratik prinsiplərə, hüququn aliliyinə, fundamental hüquqlara və vətəndaş cəmiyyətinin sərbəst fəaliyyətinə dair narahatlıqları aradan qaldırmalıdır. Eyni zamanda, Avropa İttifaqı Gürcüstanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə dəstəyini, eləcə də Gürcüstan xalqının Avropa arzularına münasibətdə mövqeyini dəyişmədiyini xüsusi vurğulayır. Bu fərq olduqca vacibdir: Brüssel Gürcüstan dövlətinin Avropa perspektivini rədd etmir, lakin hazırkı hakimiyyətin siyasətini üzvlük meyarlarına uyğun saymır.

Avropa İttifaqının Tbilisidəki səfiri Pavel Herçinski noyabrın 4-də hesabatın təqdimatıyla bağlı çıxışında Gürcüstanın Avropa yolunun hazırda faktiki dayandığını bildirib. Onun sözlərinə görə, son bir ildə demokratik geriləmə, hüququn aliliyinin zəifləməsi və fundamental hüquqlara məhdudiyyətlər daha da dərinləşib. Herçinski qeyd edib ki, Avropa yolu Gürcüstan üçün bağlı deyil, lakin hakimiyyət demokratiya, hüququn aliliyi və fundamental hüquqlar prinsiplərinə yenidən sadiqliyini real addımlarla nümayiş etdirməlidir. Bu açıqlama diplomatik baxımdan əhəmiyyətlidir: Aİ-nin Gürcüstanla bağlı mövqeyi ölkənin coğrafi və siyasi əhəmiyyətini inkar etməyə yox, üzvlük prosesinin əsas şərtlərinin yerinə yetirilməsinə yönəlib. Səfirin fikrincə, namizəd ölkələrin irəliləyişini müəyyən edən əsas amil siyasi seçimlər və fundamental islahatların həyata keçirilməsidir.

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın noyabrın 4-də verdiyi açıqlama isə böhranın növbəti mərhələyə keçə biləcəyini göstərir. Kallas bildirib ki, Gürcüstan hakimiyyəti demokratik geriləmə istiqamətində hərəkət edir və Aİ ilə açıq qarşıdurma xəttinə yaxınlaşır. Onun sözlərinə görə, 2027-ci ilin yanvarında Avropa İttifaqına üzv dövlətlərin xarici işlər nazirləri Gürcüstanla bağlı əlavə tədbirləri ətraflı müzakirə edəcəklər. Kallas mümkün sanksiyaların konkret formasını əvvəlcədən açıqlamayıb, qərarın üzv dövlətlər arasında müzakirədən sonra müəyyənləşəcəyini bildirib. Bununla belə, onun vurğuladığı əsas prinsip diqqətəlayiqdir: Avropa İttifaqı Gürcüstan xalqının İttifaqa üzvlük arzusunu dəstəkləməli, eyni zamanda həmin arzunun reallaşmasına mane olan hökumət siyasətinə münasibətdə aydın mövqe nümayiş etdirməlidir. Bu, Brüsselin cəmiyyətlə hakimiyyət arasında fərq qoymaq strategiyasının davam etdiyini göstərir.

Tbilisinin mövqeyi isə tam fərqlidir. Noyabrın 3-də Brüsseldə keçirilmiş Euronews Genişlənmə Sammitində baş nazir İrakli Kobaxidze Gürcüstan hökumətinin Avropa İttifaqına üzvlük niyyətindən imtina etmədiyini bildirib. Bununla yanaşı o, Avropa Komissiyasını Gürcüstanla siyasi dialoqu dayandırmaqda və ölkəyə təzyiq göstərməkdə ittiham edib. Kobaxidze hökumətin mübahisəli xarici təsir qanunvericiliyini ləğv etməyəcəyini də bildirib. Euronews kanalının jurnalistlərinə müsahibəsində ondan 2028-ci ilə qədər üzvlük danışıqlarının açılmaması qərarının hansı konkret planla dəyişdirilə biləcəyi soruşulsa da, baş nazir bu istiqamətdə aydın yol xəritəsi təqdim etməyib. O, Komissiyanın danışıqları açacağı təqdirdə Gürcüstanın prosesə dərhal qoşulmağa hazır olduğunu bildirib. Bu mövqe ilə Avropa Komissiyasının yanaşması arasında fundamental fərq var: Tbilisi danışıqların açılmasını Brüsselin siyasi qərarıyla əlaqələndirir, Brüssel isə danışıqların başlanması üçün əvvəlcə demokratik və hüquqi meyarların bərqərar olunmasını tələb edir.

Gürcüstan Xarici İşlər Nazirliyi də noyabrın 4-də Avropa Komissiyasının hesabatına münasibət bildirərək sənəddə faktiki yanlışlıqların və qərəzli qiymətləndirmələrin olduğunu iddia edib. Nazirlik hesabatın Gürcüstan haqqında mənfi narativləri gücləndirdiyini, Avropa İttifaqı ilə konstruktiv dialoq imkanlarını daraltdığını bildirib. Gürcüstan tərəfi sənədi ətraflı araşdıracağını və Komissiyaya əsaslandırılmış iradlarını təqdim edəcəyini açıqlayıb. Xarici işlər naziri Maka Boçorişvili isə Avropa İttifaqının Gürcüstanla dialoqu davam etdirmədən ölkədəki vəziyyəti obyektiv qiymətləndirməsinin çətin olduğunu vurğulayıb. Bu yanaşma Tbilisinin öz siyasətini suverenlik və milli maraqlar çərçivəsində əsaslandırmağa çalışdığını göstərir. Lakin diplomatik dialoqun davam etdirilməsi zərurətiylə üzvlük meyarlarının yerinə yetirilməsi məsələsi bir-birini istisna etmir. Əksinə, Aİ-yə üzvlük prosesi namizəd ölkənin siyasi iradəsini, hüquqi institutlarının müstəqilliyini və beynəlxalq öhdəliklərini praktiki nəticələrlə sübuta yetirməsini tələb edir.

Böhranın yalnız hökumət və Avropa Komissiyası arasında diplomatik mübahisə olmadığını göstərən başqa bir mühüm hadisə Gürcüstanda müxalifət partiyalarının fəaliyyətinin qadağan edilməsi təşəbbüsüdür. 2025-ci ilin noyabrında hakim "Gürcü Arzusu" partiyasının nəzarətində olan parlament bir sıra əsas müxalifət qüvvələrinin konstitusiyaya uyğunluğunun araşdırılması və qadağan olunması üçün Konstitusiya Məhkəməsinə müraciət edib. 2026-cı ilin oktyabrında bu məsələ üzrə məhkəmə dinləmələri keçirilib. Reuters-in 21 oktyabr 2026-cı il tarixli məlumatına görə, iddia beş əsas qərbyönümlü müxalifət partiyasının fəaliyyətinin qadağan edilməsini nəzərdə tutur və Konstitusiya Məhkəməsinin 2027-ci ilin iyununa qədər bu barədə qərar verəcəyi gözlənir. Hakimiyyət bu addımı konstitusiya quruluşunun müdafiəsiylə əsaslandırır, tənqidçilər isə belə qərarın siyasi plüralizmi aradan qaldıra və ölkəni faktiki olaraq birpartiyalı siyasi sistemə yaxınlaşdıra biləcəyini bildirirlər.

Avropa Parlamenti də bu məsələylə bağlı konkret mövqe nümayiş etdirib. Oktyabrın 8-də qəbul edilmiş qətnamədə Gürcüstanda müxalifət partiyalarının yasaqlanması təşəbbüsləri tənqid olunub. Avropa Parlamentinin rəsmi məlumatına əsasən, qətnamə 445 lehinə, 37 əleyhinə səslə qəbul olunub, 97 deputat bitərəf qalıb. Sənəddə Gürcüstanda demokratiya, media azadlığı, insan hüquqları və hüququn aliliyi sahəsində geriləmənin davam etdiyi bildirilir. Avropa Parlamentinin narahatlığına görə, müxalifət partiyalarının fəaliyyətinin qadağan olunması siyasi rəqabət və demokratik təmsilçilik imkanlarını ciddi şəkildə məhdudlaşdıra bilər. Oktyabrın 30-da ATƏT Parlament Assambleyasının prezidenti Mikita Poturayev də beş müxalifət partiyasının qadağan olunmasıyla bağlı məhkəmə prosesindən narahatlığını ifadə edib. O, siyasi partiyaların və vətəndaş cəmiyyətinin sərbəst fəaliyyətinin demokratik sistemin əsas şərtlərindən biri olduğunu vurğulayıb. Bu mövqelər göstərir ki, Gürcüstanın daxili siyasi mühiti artıq yalnız Aİ institutlarının yox, daha geniş beynəlxalq təşkilatların diqqət mərkəzindədir.

**davamı növbəti sayımızda**



***Kəramət QƏNBƏROV***
***Beynəlxalq hüquq üzrə ekspert***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressİnformMMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Valideyn evindən ayrılmaq

## Azadlıq, yoxsa ailə dəyərlərindən uzaqlaşmaq?



Bir evdə iki nəsil, iki fərqli həyat anlayışı... Bir tərəfdə övladının hər addımını düşünən valideyn, digər tərəfdə öz həyatını qurmaq, sərbəst qərarlar vermək istəyən gənc. Bəs insanın valideyn evindən ayrılmasının doğru zamanı nə vaxtdır? 18 yaşında, 25 yaşında, yoxsa yalnız ailə qurduqdan sonra?

**Eyni məsələyə iki fərqli baxış...**

Günümüzdə gənclərin valideynlərindən ayrı yaşamaq istəyi müzakirə olunan məsələlərdəndir. Xüsusilə, Avropa həyat tərzinin, fərdi azadlıq və şəxsi məkan anlayışının cəmiyyətimizə təsiri bu mövzunu daha da aktuallaşdırıb. Bir çox gənc müstəqil yaşamağı yetkinliyin, sərbəstliyin və şəxsi həyatına sahib çıxmağın göstəricisi hesab edir. Valideynlər isə bəzən bu istəyi ailə dəyərlərindən uzaqlaşmaq, doğmalarına qarşı laqeydlik, hətta ailə institutunun zəifləməsi kimi qəbul edirlər.

Əslində, məsələ yalnız bir evdən başqa evə köçməkdən ibarət deyil. Burada nəsillərin həyata baxışı, ailə münasibətləri, iqtisadi imkanlar, milli-mənəvi dəyərlər və fərdi azadlıq kimi bir-biri ilə sıx bağlı olan amillər var. Bəs valideyn evindən ayrılmaq müstəqilliyin zəruri şərtidirmi?

## 18 yaş tamam oldu: Ayrılmaq vaxtıdır?

Bəzi yanaşmalara görə, insan yetkinlik yaşına çatdıqdan sonra müstəqil həyat qurmağa başlamalıdır. Ancaq 18 yaşın tamam olması insanın emosional, psixoloji və maddi baxımdan tam müstəqil olduğu demək deyil. Bu yaşda gənc hələ təhsil alır, peşə seçir, gələcəyini müəyyənləşdirir. Əksər hallarda onun sabit gəliri və yaşayışını təmin etmək imkanı olmur. Belə bir vəziyyətdə sırf yaş həddinə görə valideyn evindən ayrılmaq nə qədər məqsədəuyğundur?

Digər tərəfdən, 28-30 yaşlarında olduğu halda valideynlərinin hər qərarına müdaxilə etməsinə ehtiyac duyan, gündəlik məişət məsələlərində belə onların təsdiqini gözləyən insanlar da var. Deməli, müstəqillik yalnız yaşla ölçülmür. İnsan öz məsuliyyətini daşımağı, qərarlarının nəticələrini qəbul etməyi və həyatını idarə etməyi bacardıqda müstəqilliyə daha çox yaxınlaşır.

## "Ayrı yaşamaq valideynlərdən uzaqlaşmaq demək deyil"

Psixoloq Elnur Rüstəmov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, bu məsələyə yanaşarkən konkret yaş həddi müəyyənləşdirmək doğru olmazdı. Çünki insanların emosional yetkinliyi, həyat təcrübəsi, maddi imkanları və ailə şəraiti fərqlidir: "Fikrimcə, valideynlərdən ayrı yaşamağın ən sağlam zamanı insanın bu addımı düşünülmüş şəkildə atmağa hazır olduğu dövrdür. Bu hazırlıq üç əsas amillə bağlıdır: maddi məsuliyyəti daşımaq, gündəlik həyatını müstəqil idarə etmək və emosional baxımdan valideynlərindən sağlam şəkildə ayrılmaq.

Burada emosional ayrılma valideynlərlə münasibətləri kəsmək deyil. Bu, insanın artıq hər qərarında valideyn təsdiqinə ehtiyac duymaması, öz seçimlərinin məsuliyyətini qəbul etməsi və eyni zamanda doğmalarına bağlılığını qorumasıdır. Valideynlərə də bir məqamı xatırlatmaq istərdim: övladın müstəqillik istəyi sizdən uzaqlaşmaq arzusu kimi qəbul edilməməlidir. Onun öz həyatını qurmasına imkan vermək ailə bağlarını zəiflətmir. Əksinə, düzgün münasibət qurulduqda bu bağlar daha yetkin və sağlam formaya keçir. Gənclərə isə demək istərdim ki, müstəqillik yalnız valideyn evindən çıxmaq, öz açarına sahib olmaq və istədiyini etmək deyil. Müstəqillik həm də məsuliyyət, səbir, güzəşt və çətinliklərin öhdəsindən gəlmək bacarığıdır".

## "Ailə sevgisi məsafə tanımır"

Psixoloq hesab edir ki, nə bütün gənclər 18 yaşında valideynlərindən ayrılmalıdır, nə də övladın mütləq evlənənə qədər ata-ana evində qalması vacibdir: "Hər ailənin öz reallığı, hər insanın öz inkişaf tempi var. Əsas odur ki, nə valideyn övladının həyatını idarə etməyə çalışsın, nə də övlad azadlıq anlayışını ailəsindən uzaqlaşmaqla eyniləşdirsin. Unutmayaq ki, ailəni bir dam altında yaşamaq deyil, bir-birinə bağlılıq, hörmət və qayğı bir arada saxlayır. Bəzən ayrı evlərdə yaşayan insanlar bir-birinə eyni evdə yaşayanlardan daha yaxın ola bilirlər. Əsl ailə dəyəri də məhz məsafədən asılı olmayaraq qorunan bu mənəvi yaxınlıqdır".

## Avropa düşüncəsi və Azərbaycan ailəsinin reallıqları

Məlumdur ki, Avropa ölkələrinin bir çoxunda gənclərin müəyyən yaşdan sonra valideynlərindən ayrı yaşaması adi sosial təcrübədir. Onlar təhsil, iş və şəxsi inkişaf naminə başqa şəhərə, hətta başqa ölkəyə köçürlər. Valideynlər də bunu övladlarının həyatında təbii mərhələ kimi qəbul edirlər. Maraqlıdır, bu həyat modelini olduğu kimi Azərbaycan cəmiyyətinə köçürmək nə dərəcədə doğrudur?

Azərbaycan ailəsi tarixən kollektiv dəyərlər üzərində formalaşıb. Bir neçə nəslin eyni evdə yaşaması, ailə üzvlərinin bir-birinə maddi və mənəvi dəstək göstərməsi cəmiyyətimizdə mühüm yer tutur. Bu münasibətlər sadəcə birgə yaşayış deyil, həm də sosial təhlükəsizlik, qarşılıqlı məsuliyyət və mənəvi bağlılıq sistemidir. Amma ənənələrə bağlılıq gənclərin fərdi inkişafını məhdudlaşdırmamalıdır. Eyni zamanda, müasirlik naminə ailə münasibətlərini zəiflətmək də düzgün yanaşma deyil. Əsas məsələ başqa cəmiyyətlərin həyat tərzini təqlid etmək yox, öz ailə dəyərlərimizi qoruyaraq dəyişən zamanın tələblərinə uyğunlaşmaqdır.

## Qərbin fərdiyyətçilik modeli Azərbaycan ailəsini dəyişir?

Sosioloq Sahib Altayın sözlərinə görə, övladın valideyn evindən ayrılmaq məsələsini yalnız fərdi azadlıq və şəxsi seçim çərçivəsində qiymətləndirmək düzgün deyil. O, qeyd edib ki, ailə cəmiyyətin ən mühüm sosial institutlarından biridir və birgə yaşayış forması da müəyyən mənada cəmiyyətin sosial münasibətlər sistemini formalaşdırır: "Hesab edirəm ki, Avropa həyat tərzinin Azərbaycan cəmiyyətinə olduğu kimi transfer edilməsi heç də hər zaman müsbət nəticələr vermir. Qərb cəmiyyətlərində fərdiyyətçilik, şəxsi sərhədlər və erkən müstəqillik daha çox təşviq olunsa da, bu yanaşmanın Azərbaycan ailə modelinə uyğunlaşdırılmadan qəbul edilməsi ailədaxili münasibətlərə mənfi təsir göstərə bilər. Çünki cəmiyyətimizdə ailə yalnız valideyn və övlad münasibətlərindən ibarət deyil. Burada nəsillərarası bağlılıq, qarşılıqlı qayğı, böyüklərə hörmət, övladların valideynlərinə, valideynlərin isə övladlarına qarşı məsuliyyəti kimi köklü sosial dəyərlər mövcuddur".

## "Ayrı yaşamaq müstəqillik demək deyil"

Sosioloq bildirib ki, gənclərin müstəqil yaşamaq istəyini də tamamilə yanlış hesab etmək olmaz: "Lakin burada bir məqamı nəzərə almalıyıq, müstəqillik anlayışını mütləq şəkildə valideyn evindən fiziki olaraq ayrılmaqla eyniləşdirmək doğru deyil. İnsan eyni evdə yaşadığı halda da öz qərarlarını verə, şəxsi məsuliyyətini daşıya və müstəqil düşünə bilər. Əksinə, ayrıca evdə yaşayan bir gənc bütün maddi və məişət ehtiyaclarının təmin edilməsində yenə də valideynlərindən asılı qala bilər. Bu baxımdan, ayrı yaşamaq heç də həmişə müstəqilliyin göstəricisi deyil.

Son dövrlər fərdi azadlıq anlayışının bəzən həddindən artıq ön plana çəkilməsi ailə məsuliyyətinin ikinci plana keçməsinə səbəb olur. İnsanlar şəxsi rahatlıqlarını, sərbəstliklərini və fərdi maraqlarını əsas götürərək ailə daxilində güzəştə getmək, bir-birinin həyatına uyğunlaşmaq və qarşılıqlı məsuliyyət daşımaq kimi dəyərlərdən uzaqlaşa bilirlər. Halbuki ailə yalnız hər kəsin öz sərhədlərini qoruduğu deyil, eyni zamanda müəyyən ortaq məsuliyyətləri bölüşdüyü sosial birlikdir".

## Ailədə sərbəstlik və məsuliyyət balansı

Sosioloqun sözlərinə görə, valideynlərin övladlarının həyatına həddindən artıq müdaxilə etməsi də sağlam ailə münasibətlərinə xidmət etmir: "Ancaq bu problemin həlli mütləq ayrı yaşamaqda deyil, ailədaxili münasibətlərin düzgün qurulmasındadır. Düşünürəm ki, gəncləri müəyyən yaşa çatdıqdan sonra valideyn evindən ayrılmağa təşviq etməkdənsə, onlara eyni evdə yaşasalar belə, fərdi qərarvermə və məsuliyyət bacarıqlarını aşılamaq daha məqsədəuyğundur".

*Yeganə BAYRAMOVA*

# "SpaceX" kosmosda süni intellekt data mərkəzləri yaradacaq

ABŞ Federal Rabitə Komissiyası (FCC) "SpaceX" şirkətinə süni intellektin orbital data mərkəzləri kimi xidmət etmək üçün bir milyona qədər peykdən ibarət qruplaşma yerləşdirməyə icazə verib.

AZƏRTAC "TechCrunch"a istinadla xəbər verir ki, qərar noyabrın 25-də qəbul edilib. Layihə süni intellekt hesablama infrastrukturunun bir hissəsini Yerdən orbitə köçürməyi əhatə edir. Bu, "SpaceX" şirkətinə böyük həcmdə məlumatların birbaşa kosmosda emalı üçün yeni sistem yaratmağa imkan verəcək.

FCC sədri Brendan Karr bu qərarı hesablama infrastrukturunun inkişafında və ABŞ-nin texnoloji mövqeyinin gücləndirilməsində mühüm addım adlandırıb. "Bu, Amerikanın liderliyini və böyüməsini dəstəkləmək üçün lazım olan hesablama infrastrukturu üçün cəsarətli yeni üfüq açır", - deyə o bildirib.

Layihə "Starmind" peyk sisteminə əsaslanacaq. Peyklərin Yer kürəsindən 500 ilə 1002 kilometr arasında yüksəklikdə yerləşdirilməsi planlaşdırılır. Lazer rabitəsinin peyklər arasında, eləcə də "Starlink" peykləri ilə məlumat mübadiləsi üçün istifadə ediləcəyi gözlənilir. Radiotezlik kanalları əsas sistem nasazlıqları halında Yerlə nəzarət və rabitənin ehtiyat vasitəsi qismində xidmət edəcək.

İcazəyə əsasən, "SpaceX" ilk əməliyyat peykini 2033-cü ilin noyabr ayından gec olmayaraq orbitə çıxarmalıdır. Şirkətdən 2035-ci ilin noyabrına qədər icazə verilən bürcün 10 faizini, 2038-ci ilin noyabrına qədər yarısını yerləşdirmək və 2040-cı ilin noyabrına qədər prosesi tamamlamaq tələb olunur.

Amma layihə bir sıra əhəmiyyətli texniki və iqtisadi problemlərin həllini tələb edəcək. Xüsusilə, şirkət peykin istehsalı və buraxılış xərclərini əhəmiyyətli dərəcədə azaltmalı, kosmosdakı hesablama avadanlığı üçün səmərəli soyutma sistemləri hazırlamalı və orbital data mərkəzləri üçün ixtisaslaşmış mikrosxemlərin istehsalının maliyyələşdirilməsini təmin etməlidir.

Bundan əlavə, layihə kosmik məkanın təhlükəsizliyi ilə bağlı narahatlıqlar doğurur. "Amazon", peyk şirkəti "Viasat" və Amerika Astronomiya Cəmiyyəti kimi şirkətlər də onun həyata keçirilməsinə qarşı çıxıblar. Onlar kosmik tullantıların, orbital tıxacların, radio müdaxiləsinin ətraf mühitə və astronomik tədqiqatlara təsirlərin artması potensialı ilə bağlı narahatlıqlarını bildiriblər.

Bununla yanaşı, FCC istismar müddətindən sonra "SpaceX"in təklif etdiyi alternativ peyk utilizasiyası mexanizmini hələ təsdiqləməyib. Şirkət əlavə əsaslandırma təqdim etməli və müvafiq qərarlar üçün ayrıca təsdiq almalıdır.

"SpaceX"in baş direktoru İlon Mask FCC-nin qərarını alqışlayıb,



layihənin ABŞ və dünya üçün əhəmiyyətli bir nailiyyət ola biləcəyini qeyd edib.

Beləliklə, FCC-nin qərarı "SpaceX"in kosmik texnologiya və süni intellektin kəsişməsində ən iddialı layihələrdən birini həyata keçirməsinin yolunu açır. Lakin onun praktik tətbiqi şirkətin texniki, maliyyə və ətraf mühit məhdudiyyətlərini nə dərəcədə uğurla həll etməsindən asılı olacaq.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4336**
**Sifariş: 1554**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova